21 may 2021-ci il
№18 (8926)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ!

## Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı – musiqi, birlik, qayıdış, ləyaqət bayramı



**İlham ƏLİYEV**

Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı.

İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!



## Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub

Mayın 12-də Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı məktəbin təməlini qoydu.

Prezident İlham Əliyevə məlumat verildi ki, 1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz burada qoyulub. 1980-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunub. İşğala qədər 1 saylı məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağını da erməni vandalları tamamilə dağıdıblar.

Yeni 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

## Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 3,0 (üç) milyon manat vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 may 2021-ci il*

# Prezident Qəbələnin Nic qəsəbəsindəki 1 saylı orta məktəbdə olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mayın 15-də Qəbələ rayonunda səfərdə olublar.

Səfər çərçivəsində dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələnin Nic qəsəbəsindəki 1 saylı orta məktəbə gəliblər.

Məlumat verilib ki, 1857-ci ildə inşa edilən bu məktəbdə hazırda 135 şagird təhsil alır.



# Qəbələ rayonunun Nic qəsəbəsində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Qəbələ rayonunun Nic qəsəbəsində 4 nömrəli tam orta məktəb üçün 360 şagird yerlik yeni binanın tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 may 2021-ci il*

# Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin (siyahı əlavə olunur) tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.14.1-ci yarımbəndində göstərilmiş 20,0 (iyirmi) milyon manat vəsait Bakı Şəhər İcra Hakimiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş bölgüyə uyğun olaraq maliyyələşməni təmin etsin.
3. Bakı Şəhər İcra Hakimiyyəti bu Sərəncamla təsdiq edilmiş bölgüdə göstərilən layihələr üzrə yerinə yetirilmiş işlər haqqında hesabatı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi formaya uyğun olaraq rübdə bir dəfə, növbəti rübün ilk ayının 10-dan gec olmayaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 may 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 8 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Bakı şəhərində və onun qəsəbələrində tikintisi, əsaslı təmiri və bərpası nəzərdə tutulan məktəblərin siyahısı

| Sıra №-si | Tədbirin adı | Ayrılan vəsait (min manatla) | İcrası başa çatan layihələr |
|---|---|---|---|
| 1 | Sabunçu rayonunun Zabrat qəsəbəsində 71 nömrəli orta məktəb üçün əlavə 30 sinif otaqlı korpusun tikintisinin başa çatdırılması və mövcud binanın əsaslı təmiri | 6.240,0 | 2021 |
| 2 | Sabunçu rayonunun Zabrat qəsəbəsində 307 nömrəli orta məktəb üçün əlavə 15 sinif otaqlı korpusun tikintisinin başa çatdırılması və mövcud binanın əsaslı təmiri | 5.280,0 | 2021 |
| 3 | Suraxanı rayonunun Əmircan qəsəbəsində 87 nömrəli orta məktəbin köhnə korpusunun sökülməsi, 1752 şagird yerlik yeni korpusların tikintisi | 3.210,0 | |
| 4 | Xətai rayonunda 263 nömrəli orta məktəbin ikimərtəbəli korpusunun və birmərtəbəli keçidlərinin sökülməsi, yeni korpusların (idman və akt zalı ilə) tikintisi | 3.690,0 | |
| 5 | Nəsimi rayonunda 35 nömrəli orta məktəbin köhnə korpusunun sökülməsi, yeni korpusun tikintisi | 1.580,0 | |
| | **Cəmi** | **20.000,0** | |

# "Ən yaxşı təqdimat"

## Təhsil naziri müsabiqə qalibləri ilə onlayn görüş keçirib



Mayın 7-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri ilə onlayn görüş keçirilib.

Tədbiri giriş nitqi ilə açan müsabiqənin işçi qrupunun sədri, təhsil nazirinin müavini Firudin Qurbanov ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının müstəqilliyi və xoşbəxt gələcəyi naminə danılmaz xidmətlərindən söz açıb.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin təhsilin inkişafına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini, təhsil sahəsinin cəmiyyətdə rolunu və əhəmiyyətini yüksək qiymətləndirdiyini xatırladıb. Təhsil naziri qalibləri təbrik edərək, onlara uğurlar arzulayıb.

Tədbirdə iştirak edən Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədrinin müavini Mirzə Cəfərzadə də öz növbəsində müsabiqə qaliblərinə təbrikini çatdırıb və tədbirin təşkilinə görə təşəkkür edib.

Sonda qalib şagirdlər öz təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, "Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, 6 nəfər I, 10 nəfər II, 15 nəfər III dərəcəli diplom, 20 nəfər isə həvəsləndirici tərifnaməyə layiq görülüb.

# "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin təltif edilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə 2020-2021-ci dərs ilində ümumtəhsil məktəb şagirdləri arasında keçirilmiş "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin təltif olunması ilə əlaqədar "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Aşağıda adları göstərilən şagirdlər I, II, III dərəcəli diplomlar və tərifnamə ilə təltif edilsinlər:

### I dərəcəli diplomla

1. Hüseynov Riad Fuad oğlu - Bakı şəhəri 18 nömrəli tam orta məktəbin X sinif şagirdi
2. Qəniyeva Nastya Ruslan qızı - Bakı şəhəri 116 nömrəli tam orta məktəbin IX sinif şagirdi
3. Abuşova Jalə Valid qızı - Mingəçevir şəhəri 16 nömrəli tam orta məktəbin XI sinif şagirdi
4. Qurbanova Nuray Valeh qızı - Abşeron rayonu Məmmədli kənd tam orta məktəbinin X sinif şagirdi
5. Həsənova Natavan Anar qızı - Lənkəran şəhəri 3 nömrəli tam orta məktəbin X sinif şagirdi
6. Zeynallı Bülbül Namiq qızı - XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin X sinif şagirdi

### II dərəcəli diplomla

1. Aşumova Nigar Eldar qızı - Bakı şəhəri 27 nömrəli tam orta məktəbin X sinif şagirdi
2. Məhərrəmova Nərmin Mahir qızı - Bakı şəhəri 83 nömrəli məktəb-liseyin XI sinif şagirdi
3. Abdullazadə Kamil Adil oğlu - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyin X sinif şagirdi
4. Ələkbərli Fidan Ramazan qızı - İsmayıllı rayonu Təzəkənd kənd tam orta məktəbinin XI sinif şagirdi
5. Rəhimova Afət Fərhad qızı - Quba şəhəri 5 nömrəli tam orta məktəbin X sinif şagirdi
6. Bayramova Leyla Alim qızı - Samux rayonu Qarayeri qəsəbə 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
7. Şirəliyeva Aytac Rövşən qızı - Şamaxı şəhəri 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi
8. Yusubov Ayxan Adil oğlu - Şəki şəhəri 10 nömrəli tam orta məktəbin XI sinif şagirdi
9. Bayramova Ayşə Bəhruz qızı - Zaqatala şəhəri 3 nömrəli tam orta məktəbin X sinif şagirdi
10. İsayev Əli İlqar oğlu - Bakı Modern Təhsil Kompleksinin XI sinif şagirdi

### III dərəcəli diplomla

1. Hüseynov Salman Fuad oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyinin IX sinif şagirdi
2. Cəfərzadə Nəzrin Elxan qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəbin X sinif şagirdi
3. Aslanova Gülsüm Rövşən qızı - Bakı şəhəri 53 nömrəli tam orta məktəbin XI sinif şagirdi
4. Abbasova Şəms Ceyhun qızı - Bakı şəhəri 82 nömrəli tam orta məktəbin XI sinif şagirdi
5. İskəndərli İranə Turan qızı - Bakı şəhəri 287 nömrəli "Zəkalar" liseyinin IX sinif şagirdi
6. Qurbanova Mehrəngiz Qurban qızı - Sumqayıt şəhəri "Təfəkkür" liseyinin X sinif şagirdi
7. Qafarova Lalə Ramin qızı - Abşeron rayonu Görədil kənd tam orta məktəbinin IX sinif şagirdi
8. Teymurova Aynur Vüqar qızı - Ağdam rayonu 2 nömrəli tam orta məktəbin X sinif şagirdi
9. Yusifli Ayşə Süleyman qızı - Ağdaş şəhəri 1 nömrəli məktəb-liseyin XI sinif şagirdi
10. Mehdi Nəzrin Turan qızı - Göyçay şəhəri 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi
11. Bağırova Fatimə Elşən qızı - Neftçala rayonu Qədimkənd kənd tam orta məktəbinin XI sinif şagirdi
12. Kərimli Fuad Cavid oğlu - Qax şəhəri 2 nömrəli məktəb-liseyin XI sinif şagirdi
13. Qəribli Nərmin Mübariz qızı - Qəbələ şəhəri 2 nömrəli tam orta məktəbin X sinif şagirdi
14. Quliyeva Mələkxanım Namiq qızı - Qusar şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
15. Əhmədli Zəhra Ceyhun qızı - Şuşa şəhəri 12 nömrəli tam orta məktəbin IX sinif şagirdi

### Tərifnamə ilə

1. Abbaslı Qüdrət Ayaz oğlu - Bakı Slavyan Universiteti nəzdində məktəb-lisey kompleksinin X sinif şagirdi
2. Həsənova Röya Rövşən qızı - Bakı şəhəri 7 nömrəli tam orta məktəbin X sinif şagirdi
3. Hüseynli Nəzrin Hüseyn qızı - Bakı şəhəri 251 nömrəli tam orta məktəbin X sinif şagirdi
4. Məmişov İlkin Mehman oğlu - Bakı şəhəri 327 nömrəli tam orta məktəbin IX sinif şagirdi
5. İsgəndərov Fərid Nail oğlu - Gəncə şəhəri 4 nömrəli tam orta məktəbin XI sinif şagirdi
6. Abdullayeva Ülkər Ramin qızı - Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəbin XI sinif şagirdi
7. Mahmudlu Cavad Rasim oğlu - Şirvan şəhəri 1 nömrəli məktəb-liseyin X sinif şagirdi
8. Məmmədzadə Məsuməxanım Yaşar qızı - Astara şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
9. Paşayeva Nərmin Vidadi qızı - Ağstafa rayonu Dağkəsəmən kənd 2 nömrəli tam orta məktəbin X sinif şagirdi
10. İmanzadə Lalə Ramin qızı - Cəlilabad rayonu Sabirabad kənd 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi
11. Hacıyeva İlahə İlham qızı - Füzuli rayonu 50 nömrəli tam orta məktəbin XI sinif şagirdi
12. Ağayeva Aydan Ramil qızı - Hacıqabul şəhəri 8 nömrəli məktəb-liseyin XI sinif şagirdi
13. Cəfərova Sədayə Mübariz qızı - Kürdəmir şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
14. Məmmədov Misir Şahin oğlu - Laçın rayonu 7 nömrəli tam orta məktəbin IX sinif şagirdi
15. Hüseynova Aysun Oktay qızı - Lerik şəhəri 1 nömrəli məktəb-liseyin X sinif şagirdi
16. Nəzərova Lamiyə Elxan qızı - Masallı rayonu Qızılavar kənd tam orta məktəbin IX sinif şagirdi
17. Xəlilova Sevinc Çingiz qızı - Sabirabad şəhəri 4 nömrəli tam orta məktəbin X sinif şagirdi
18. Nuriyeva Züleyxa Kamran qızı - Xaçmaz şəhəri 8 nömrəli məktəb-liseyin IX sinif şagirdi
19. Cavadova Şahanə Rizvan qızı - Yevlax şəhəri 4 nömrəli tam orta məktəbin XI sinif şagirdi
20. Fərzizadə Gülnur Zahir qızı - Yardımlı şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi

**2.** İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin müvafiq struktur bölmələrə çatdırılmasını təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*27 aprel 2021-ci il*

# "BİR" könüllülər təltif edilib

Könüllülük fəaliyyəti gənclərimizin əsas fəaliyyət istiqamətlərindən birinə çevrilir





Mayın 7-də 2020-ci il - "Könüllülər ili" çərçivəsində aktiv fəaliyyət göstərən bir qrup tələbə-könüllünün təltifetmə mərasimi keçirilib.

Mərasimdə iştirak edən təhsil naziri Emin Əmrullayev könüllülük fəaliyyətinin tələbələrə qazandırdıqlarından danışıb. Nazir bildirib ki, könüllülük fəaliyyətinin gənclərimizin əsas fəaliyyət istiqamətlərindən birinə çevrilməsi sevindirici bir haldır.

Təhsil naziri sonda "BİR" tələbə-könüllüləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb.

Pandemiya dövründə könüllülərin aktiv fəaliyyətini diqqətə çatdıran təhsil nazirinin müavini Firudin Qurbanov öz növbəsində könüllük fəaliyyəti əsasında qazanılan bilik və bacarıqların şəxsiyyət kimi formalaşmaqda mühüm rol oynadığını vurğulayıb.

Sonda könüllülərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, "Bir" tələbə-könüllü proqramı tələbələrin şəxsi inkişafı və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərir. BİR könüllü olmaq istəyən tələbələr *https://konullu.edu.az/* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.

## "Təhsil" üzrə alt İşçi Qrupunun növbəti iclası keçirilib

Mayın 19-da "Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" üzrə Milli Prioritetin həyata keçirilməsi məqsədilə yaradılmış "Təhsil" üzrə alt İşçi Qrupunun növbəti iclası keçirilib.

Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən iclas çərçivəsində "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" üzrə Milli Prioritetin "Təhsil" üzrə alt İşçi Qrupunun təqdimatı nümayiş olunub. Bildirilib ki, son illərdə həyata keçirilmiş islahatlar nəticəsində təhsil sistemində ciddi dəyişikliyə nail olunub və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsasında təhsildə bir çox islahatlar aparılıb. Belə ki, məktəbəqədər təhsilin (5 yaşlılar) əhatə dairəsi 2015-2016-cı illərdəki 24 faizdən artaraq 80 faizə çatıb. Azərbaycan bütün beynəlxalq qiymətləndirmələr üzrə öz göstəricilərini yaxşılaşdırıb. Ən böyük irəliləyiş 2011-ci ildən etibarən 52 bal irəliləyərək 2019-cu ildə 515 xala çatdığımız TIMSS riyaziyyat nəticələrində (4-cü siniflər) qeydə alınıb. Bundan başqa, buraxılış imtahanı (9-cu sinif) nəticələri yaxşılaşan məktəblərin sayı son iki ildə 4 dəfə artıb. 150 min müəllimin diaqnostik qiymətləndirmə əsasında aylıq əməkhaqqı 2 dəfə artırılıb. Ali məktəbə qəbul olunmuş (bakalavr və magistr) tələbələrin sayı 2020-2021-ci illərdə 52 minə çatdırılıb. 2017-2018-ci ildə bu rəqəm 37 min təşkil edib.

İclasda sözügedən prioritetin hədəflərinə nail olmaq üçün təhsil pillələri üzrə XXI əsrin tələblərinə uyğun təhsil məqsədlərinin reallaşdırılmasına dair fəaliyyətlər haqqında məsləhətləşmələr və müzakirələr aparılıb.

Qeyd edilib ki, növbəti illərdə təhsil sahəsində islahatların aparılması üçün məqsəd və alt məqsədlər müəyyənləşdirilib. XXI əsrin tələblərinə uyğun təhsil məqsədinə çatmaq üçün bir çox sahələrdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Qarşıda duran məqsədlər sırasında erkən yaş dövründə inkişafın təmin edilməsi və səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, peşə təhsilinin dördüncü sənaye inqilabının və əmək bazarının gələcək tələblərinə uyğunlaşdırılması, keyfiyyətinin və əhatə dairəsinin artırılması, ali təhsilin əlçatanlığının, keyfiyyətinin və beynəlxalq rəqabətliliyinin təmin edilməsi, elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi, eləcə də şəriştələrin davamlı inkişafına əsaslanan "ömürboyu təhsil" sisteminin formalaşdırılması və erkən yaşlardan rəqəmsal səriştələrin artırılması, İKT-nin təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi yer alır.

## Yaz imtahan sessiyası distant keçiriləcək

Ali və orta ixtisas təhsili müəssisələrində 2020-2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası distant (məsafədən) formada keçiriləcək.

Təhsil naziri Emin Əmrullayevin imzaladığı müvafiq əmrdə bildirilir ki, müəyyən fənlər üzrə imtahanlar əyani formada keçirildiyi təqdirdə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"ə və Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na riayət olunmalıdır.

Əmrdə qeyd edilir ki, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri imtahan sessiyasının qüvvədə olan normativ sənədlər əsasında təşkilini təmin etməli, rəhbərlik etdikləri təhsil müəssisələrində imtahan qərargahı yaratmalıdırlar. Həmçinin qərargaha daxil olan hər bir şikayət operativ şəkildə araşdırılmalıdır. İmtahanların təşkilində və gedişatında nöqsanlara yol vermiş şəxslər barədə mövcud qanunvericiliyə uyğun tədbirlər görüləcək.




## PISA-2022 tədqiqatının pilot mərhələsi yekunlaşıb

19 aprel 2021-ci il tarixindən başlayan PISA-2022 beynəlxalq qiymətləndirmə tədqiqatının pilot mərhələsi başa çatıb. Sözügedən mərhələ Təhsil Nazirliyi və Təhsil İnstitutu tərəfindən həyata keçirilib. Tədqiqatın pilot mərhələsində Bakı üzrə 63 məktəbdən 2800-dən çox şagird, 1100-dən çox müəllim və 63 məktəb direktoru iştirak edib. Proses pandemiya şəraiti nəzərə alınaraq təşkil edilib. Tədqiqatın əsas mərhələsinin 2022-ci ilin aprel-may ayları ərzində təşkili nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan sonuncu dəfə 2018-ci ildə PISA-da iştirak edib. Şagirdlərimizin riyaziyyat üzrə orta göstəricisi 420, oxu üzrə 389, təbiət elmləri üzrə isə 398 bal təşkil edib. Tədqiqat 2018-ci ildən başlayaraq kompüter əsaslı həyata keçirilir.

PISA (Programme for International Student Assessment) - Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı 80-dən çox ölkədə 15 yaşlı şagirdlər arasında oxu, riyaziyyat, təbiət elmləri və yaradıcı düşünmə üzrə bilik və bacarıqları qiymətləndirmək, eyni zamanda bu bilik və bacarıqları real həyatda istifadə etmək qabiliyyətini müəyyənləşdirmək məqsədi ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organisation for Economic Co-operation and Development) tərəfindən 3 ildən bir təşkil olunur.

## Tələbələrin və təhsil müəssisələrinin nəzərinə

Mayın 19-dan *https://e-telebe.edu.az* elektron portalı vasitəsi ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsinə dair müraciətlərin qəbuluna start verilib. *http://e-telebe.edu.az* elektron portalı vasitəsi ilə müraciətlərin qəbulu iyun ayının 7-dək aktiv olacaq.

2020-2021-ci tədris ilinin payız (yarımili) semestri üçün təhsil haqqı xərcləri dövlət tərəfindən ödənilən tələbələrin 2020-2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı *https://e-telebe.edu.az* elektron portalına müraciət etmələri tələb olunmur. Belə ki, həmin tələbələrin 2020-2021-ci tədris ilinin payız semestri üçün sistemdəki müraciətləri əsas götürülərək onların 2020-2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olması statusu elektron informasiya sistemi tərəfindən avtomatik rejimdə yoxlanılacaq, hüququ olan tələbələr üçün təhsil haqqı xərcləri təhsil müəssisələrinə ödəniləcək və bu barədə tələbələrə SMS məlumat göndəriləcək.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olmasına baxmayaraq sistemə müraciət etməyən və ya bu statusu yeni əldə edən tələbələr 2020-2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı *https://e-telebe.edu.az* elektron portalına mütləq qaydada müraciət etməlidirlər.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, yerli təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulub.

## Apellyasiya Şurasının iclası keçirilib

Mayın 7-də təhsil nazirinin müavini, Nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

“Microsoft Teams” platforması üzərindən keçirilən iclasda Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin Təhsil müəssisələri ilə iş sektorunda məsləhətçi vəzifəsinə namizəd Samir Vəliyevin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsil sektorunda böyük məsləhətçi vəzifəsinə namizəd Fatimə Məmmədovanın müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 1 nəfərin şikayətinin təmin olunması və 1 nəfərin şikayətinin təmin olunmaması barədə Şura tərəfindən qərar qəbul olunub.

## Mühəndislik ixtisasları üzrə ikili diplom proqramı

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində mühəndislik ixtisasları istiqaməti üzrə beynəlxalq ikili diplom proqramına növbəti qəbul prosesinə start verilir.

İkili diplom proqramı Bakı Mühəndislik Universiteti və Cənubi Koreyanın nüfuzlu ali təhsil müəssisəsi olan İnha Universiteti tərəfindən həyata keçirilir.

2021-2022-ci tədris ili üzrə ingilis dilində 4 il müddətində həyata keçiriləcək bakalavr proqramına informasiya texnologiyaları, inşaat mühəndisliyi, elektronika mühəndisliyi və elektrik mühəndisliyi ixtisasları üzrə hər biri 25 nəfər olmaqla 100 nəfərin qəbul edilməsi nəzərdə tutulur. Proqramın məzunlarının qazanacağı bilik və bacarıqlar qeyd olunan 4 ixtisas üzrə mühəndislik sahələri, tədqiqat, beynəlxalq təhsil, təhlil və inkişaf sahəsini əhatə edəcək.

Təhsilalanların təhsil haqqı, qeydiyyat xərci, tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri, Cənubi Koreyada 1 illik təhsil və 3 həftəlik yay məktəbində iştirak xərcləri, istehsalat təcrübəsində iştirak xərcləri “2019-2023 Dövlət Proqramı” tərəfindən qarşılanır.

Beynəlxalq ikili diplom proqramına qəbul Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən qəbul imtahanlarının (bakalavr) nəticələri və İnha Universitetinin seçimi əsasında aparılır.

## “SELFIE” pilot layihəsinin tətbiqinə başlanılır




Azərbaycanda 12 təhsil müəssisəsində beynəlxalq “SELFIE” layihəsinin pilot tətbiqinə başlanılır.

Avropa Komissiyasının Birgə Tədqiqat Mərkəzi və Avropa Təlim Fondu tərəfindən yaradılan “SELFIE” onlayn alətinin tətbiqi təhsil müəssisələrində rəqəmsal texnologiyadan istifadə ilə bağlı boşluqları görmək və daha səmərəli istifadəni təmin etmək məqsədi daşıyır.

Sözügedən alət təhsil müəssisələrində rəqəmsal texnologiyaların tədris, öyrənmə və qiymətləndirmə proseslərinə daxil edilməsinə, eyni zamanda, təhsilalanların rəqəmsal səriştəsinin inkişafına dəstək olan vasitədir. Alət təhsil müəssisələrində məktəb rəhbərləri, təhsilverənlər və təhsilalanların rəylərini toplamaq üçün sorğular tətbiq edir və sorğular müəyyən dövr ərzində müəssisənin öz rəqəmsal tərəqqisini yoxlayan mövzuları əhatə edir. Nəticədə toplanmış məlumatlar əsasında məktəbin rəqəmsal texnologiyadan istifadəsi üzrə güclü və zəif tərəflərini əks etdirən hesabatların hazırlanması mümkün olur.

Qeyd edək ki, “SELFIE” alətinin Azərbaycan dilində tətbiqi üçün tərcümə işləri aparılıb və alətin sınaqdan keçirilməsi üçün ilkin olaraq 12 təhsil müəssisəsi seçilib. Seçim ümumi və peşə təhsili pillələri üzrə regional balanslaşma, müəssisələrin infrastrukturu, müəssisədə müəllim və şagird sayı meyarları əsasında aparılıb.

# Nazir müavini UNESCO Davamlı İnkişaf üçün Ümumdünya Təhsil Konfransında çıxış edib




Mayın 18-də təhsil nazirinin müavini Muxtar Məmmədov UNESCO tərəfindən təşkil olunmuş UNESCO Davamlı İnkişaf üçün Ümumdünya Təhsil Konfransında iştirak edib.

Dayanıqlı İnkişaf naminə təhsil mövzusuna həsr olunan virtual tədbirdə UNESCO-nun Baş direktoru Odri Azulay, BMT Baş katibinin müavini Amina Mohammed, bir sıra ölkələrin təhsil üzrə rəhbər şəxsləri iştirak edib.

Tədbir zamanı Muxtar Məmmədov Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində təhsil sahəsində görülən işlər, əldə olunan nailiyyətlər barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Nazir müavini həmçinin, ötən il Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində həlak olmuş və yaralanmış şagird və müəllimlər, habelə zərər dəymiş təhsil müəssisələri barədə danışıb. Muxtar Məmmədov təhsil müəssisələrinin bərpa olunması istiqamətində zəruri addımların atıldığını və münaqişənin fəsadlarının aradan qaldırılması istiqamətində təhsilalanlara və təhsilverənlərə sosial-psixoloji dəstəyin göstərildiyini bildirib.

## İşə qəbul müsabiqəsinin qiymətləndirmə çərçivəsini izah edən videolar




Təhsil İnstitutunun Təhsil İşçilərinin Peşəkar İnkişafı Mərkəzi tərəfindən ümumi təhsil müəssisələrində fəaliyyət göstərən və ya göstərmək istəyən müəllimlər üçün müəllimlərin işə qəbulu müsabiqəsinin qiymətləndirmə çərçivəsi hazırlanıb. 20 fənn, metodika ve pedaqogika üzrə məzmun sahələri, sual sayı, bölmələr və mövzuları əhatə edən məlumat kitabçası daha öncə təqdim olunub. Kitabça ilə müvafiq keçidə daxil olaraq tanış ola bilərsiniz: *https://bit.ly/3ooQlnx*

Təhsil İnstitutu tərəfindən müvafiq linkə *(https://www.arti.edu.az/az/presentation/688-muallimlarin-isa-qabulu-musabiqasinin-qiymatlandirma-carcivasini-izah-edan-videolar)* əlavə edilmiş videolarda isə 20 fənn, metodika ve pedaqogika üzrə müəllimlərin işə qəbulu və sertifikasiyası imtahanlarının məzmunu şərh olunur, sual nümunələri təqdim edilir, eyni zamanda həmin suallar vasitəsilə qiymətləndirmə çərçivəsində namizədlərə qoyulan tələblərin necə ölçüləcəyi haqqında məlumat verilir.

Qeyd edək ki, sözügedən videolar müzakirəyə açıqdır. Müəllimlər və müəllimliyə namizədlər tərəfindən veriləcək rəy və tövsiyələr müəllimlərin işə qəbulu müsabiqəsinə hazırlıq prosesi çərçivəsində görülən işlərin təkmilləşdirilməsi və səmərəliliyinin artırılmasına dəstək göstərəcək.

## BMU-da akkreditasiya qiymətləndirilməsinə həsr olunan seminar

Bakı Mühəndislik Universitetinin (BMU) Distant Təhsil və Keyfiyyətin Təminatı Mərkəzinin təşkilatçılığı ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) onlayn seminarı təşkil olunub.

Seminarın keçirilməsində məqsəd yeni redaksiyada təsdiq olunmuş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”na əsasən akkreditasiya qiymətləndirilməsini həyata keçirəcək Akkreditasiya Komissiyalarının fəaliyyətində ekspert kimi iştirak etməyin əhəmiyyəti və tələblərinə dair məlumat vermək olub.

“Akkreditasiya qiymətləndirilməsində ekspertlərin rolu” mövzusunda baş tutan seminarda BMU-nun müəllimləri iştirak ediblər.

Tədbirdə TKTA-nın Təlim və metodologiya şöbəsinin müdiri Asiman İlyasov geniş təqdimatla çıxış edib. Qeyd edib ki, agentliyin fəaliyyət istiqamətləri təhsil müəssisələrinin akkreditasiyasını, xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınmasını və ekvivalentliyinin müəyyən edilməsini, həmçinin peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi, tanınmasını həyata keçirməkdir.

Yeni akkreditasiya qaydalarından danışan şöbə müdiri keyfiyyətin təminatı sisteminə də toxunub. O, agentliyin formalaşdırdığı “Ekspert bankı”na seçilmiş şəxslər üçün keyfiyyət təminatı proseslərində qiymətləndirici qismində iştirak məqsədilə müvafiq təlimlərin təşkil olunduğunu və sertifikatlaşdırıldığını diqqətə çatdırıb. A.İlyasov komissiyanın tərkibi, ekspertlərə qoyulan tələblər, ekspertin komissiyadakı fəaliyyəti barədə də iştirakçılara ətraflı məlumat verib.

# Tələbə təşəbbüsləri, modern təcrübə

## UNEC tələbələri üçün yeni layihə

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) tələbə təşəbbüslərini dəstəkləmək, bu yöndə modern təcrübəni tətbiq etmək məqsədilə yeni layihəyə start verilib.

Layihənin təşkilatçıları UNEC Karyera Mərkəzi və rəqəmsal iqtisadiyyat fakültəsinin İnformasiya texnologiyaları ixtisası nəzdində fəaliyyət göstərən “UNEC Future Club”dur.

Universitetdən bildirilib ki, layihə çərçivəsində informasiya texnologiyaları ixtisasında təhsil alan tələbələrə beynəlxalq İT şirkətləri ilə kommunikasiya qurmaq və təcrübə mübadiləsi aparmaq imkanları yaradılacaq.

Bu məqsədlə İT ixtisası üzrə təhsil alan tələbələrlə İT sahəsi üzrə mütəxəssis Vüsal Dadalovun onlayn görüşü keçirilib. Vebinarda “UNEC Future Club”un koordinatoru Murad Ələsgərli layihə barədə məlumat verib. Bildirib ki, layihənin ilkin mərhələsində tələbələrin İT sahəsində uğurlu karyera quran, beynəlxalq şirkətlərdə çalışan şəxslərlə görüşləri keçiriləcək, növbəti mərhələlərdə isə beynəlxalq İT şirkətləri ilə təcrübə mübadiləsi təşkil olunacaq.

Sonra V.Dadalov çalışdığı şirkətlərin və qurucusu olduğu beynəlxalq “İOMETE” şirkətinin iş təcrübəsi barədə məlumat verib.

Vebinarda tələbələri maraqlandıran suallar cavablandırılıb.




# “Qalib müəllim”

## Media nümayəndələri üçün müsabiqə

Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Qalib müəllim” videohekayə müsabiqəsinə müraciətlərin qəbul vaxtı uzadılıb.

Müsabiqədə iştirak etmək istəyənlər hazırlanmış video materialları 25 may 2021-ci il tarixinədək *press@edu.gov.az* elektron ünvanına göndərməlidirlər.

**Müsabiqə aşağıdakı başlıqlar üzrə keçirilir:**

**- “Qalib əsgərin müəllimi”** - şagird və tələbələri vətənpərvər ruhda yetişdirən Azərbaycan müəllimi haqqında videooçerk;

**- “Ön cəbhədə döyüşən müəllim”** - Vətən müharibəsində iştirak etmiş əsgər, qazi və şəhid olan müəllimlərin həyat hekayəsi.

**Müsabiqə üzrə tələblər aşağıdakılardır:**

- Müsabiqədə ölkəmizdəki media qurumlarının nümayəndələri iştirak edə bilər;
- Müsabiqəyə göndərilən video 2 dəqiqədən artıq olmamalıdır;
- İştirakçı özü haqqında zəruri məlumatları (adı, soyadı, yaşı, yaşadığı şəhərin (rayonun) adı, təmsil etdiyi media qurumunun adı və tutduğu vəzifə, əlaqə telefonu) daxil etməklə hazırlanmış videonu 25 may 2021-ci il tarixinədək **press@edu.gov.az** elektron ünvanına göndərməlidir;
- Hər iştirakçı bir videohekayə göndərə bilər;
- Müsabiqəyə təqdim olunan videohekayələr “Qalib müəllim” ön sözü ilə başlamalıdır.

Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd 44 günlük Vətən müharibəsində iştirak edən, eyni zamanda qalib əsgərin formalaşmasında rolu olan Azərbaycan müəllimlərinin tanıdılmasıdır.

Sonda qaliblər Təhsil Nazirliyinin sertifikatı və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

# "Məktəb cəmiyyətin arxasınca düşməməlidir"




"Yeni çağırışlar"da novbəti qonaq İndiana Universitetinin fəxri professoru Tod Vitaker olub

"Yeni çağırışlar" onlayn müzakirə proqramının növbəti qonağı təhsildə liderlik üzrə tanınmış amerikalı mütəxəssis, İndiana Universitetinin fəxri professoru, bestsellerlər müəllifi Tod Vitaker təhsil təcrübələrini paylaşıb. Təhsil Nazirliyinin dəstəyi və T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə T-Network-un koordinatoru Cəfər Mənsiminin təqdimatında davam edən "Yeni çağırışlar" proqramının 7 may 2021-ci il tarixində yayımlanan bölümündə təhsildə effektivlik və liderlik haqqında söhbət aparılıb. Təhsil Nazirliyinin "Facebook" səhifəsindən canlı yayımlanan görüş Mətin Axundlunun tərcüməsi ilə Azərbaycan dilində əks olunub.

## "Məktəb özü nümunəvi cəmiyyət olmalıdır"

### Basketbolda əsas məqsəd topu səbətə atmaqdır, bəs təhsildə?

Görüşün aparıcısı, T-Network-un koordinatoru Cəfər Mənsimi qonağı izləyicilərə yaxından təqdim edərək qeyd edib ki, tanınmış təhsil tədqiqatçısı, İndiana Universitetinin fəxri professoru Tod Vitaker motivasiya,-təhsil liderliyi və effektivlik üzrə ABŞ-ın ən qabaqcıl mütəxəssislərindən biridir. Professor 62-dən çox kitabın, həmçinin milli bestseller sayılan "Uğurlu müəllimlər nəyi fərqli edirlər" (What Great Teachers Do Differently) əsərinin müəllifidir. O, ali təhsil sahəsində karyerasına başlamazdan öncə məktəbdə riyaziyyat müəllimi, basketbol məşqçisi və müdir işləyib.

C.Mənsiminin Tod Vitakerə ünvanlandırdığı birinci sual "Siz həm də basketbol məşqçisi işləmisiniz. Basketbolda əsas məqsəd topu səbətə atmaqdır, bəs təhsildə necə? Basketbol məşqçisi olaraq müəllimlik peşəsi və təhsil liderliyi ilə sizi birləşdirən ortaq nöqtə nədir?" olub. Professor bildirib ki, əslində basketbolda iki məqsəd var: topu səbətə daxil etmək və digər komandaya bunu imkan verməmək. Təhsildə məqsədlərdən biri şagirdlərin bacarıqlarının, imkanlarının maksimuma çatdırılmasıdır. Məktəbin əsas vəzifələrindən biri budur. Direktorun məqsədi isə odur ki, müəllimlərin bacarıqlarını maksimum həddə çatdırsın, müəllimlər sahib olduğu savadla, bilik və bacarıqlarla şagird və tələbələrə kömək etsinlər, onlara yeni səviyyələrə çıxmağa imkan yaratsınlar.

"Təhsilin məqsədinə çatmasında öz rolunuzu necə dəyərləndirirsiniz, hansı dəyişikliklər olması üçün çalışırsınız?" sualına cavab olaraq isə təhsil lideri bunları deyib: "Pandemiya həyatımıza göstərdiyi mənfi təsirlərlə yanaşı dəyişikliklər həyata keçirmək üçün müəyyən şərait yaratdı. Mən başlıca olaraq müəllimin səmərəli, keyfiyyətli ruhunu qeyd etmək istərdim. ABŞ-da məktəblərlə valideyn arasında münasibətlərin qurulmasına xüsusi önəm verilir. Başlıca məqsəd effektiv, səmərəli müəllim olmaqdır. İlk baxışdan sadə görünə bilər, lakin bu, heç də asan məsələ deyil. Təhsildə hansı dəyişiklik üçün çalışdığıma gəlincə, mən əsas rolumu şagird və tələbələrin yaxşı məktəb və müəllimlə təmin olunmasında görürəm, öz tədqiqatlarım ilə buna can atıram. Həm də həmişə ilk növbədə müəllimlərin mənafeyini qorumağa çalışıram. Yaxşı məktəb deyiriksə, orada mütləq yaxşı müəllim olmalıdır ki, uşaqlara lazım olan savadı versinlər".

### Yaxşı məktəb

"Yaxşı məktəb dedikdə necə bir məktəb nəzərdə tutursunuz? Yaxşı məktəbə verdiyiniz tərif nədir, ən yaxşı məktəblər necə yaxşılaşır?" suallarına professor belə cavab verib: "Proqramlar çox ola bilər, lakin başlıcası insanlardır, proqramlar yox. Yəni, məktəblərin özlərində müxtəlif təyinatlı proqramlar ola bilər, lakin fərqi yaradan insanlardır. Yaxşı məktəb həmin məktəb sayılır ki, bütün şagirdlər əhatə olunur, heç kim kənarda qalmır, istər istedadlı, yüksək nailiyyətli, istərsə də orta səviyyəli və geri qalan, ailə vəziyyəti və maddi durumundan asılı olmayaraq bütün şagird və tələbələr. Yaxşı məktəbin əsas xüsusiyyətləri budur".

Bu günə qədər "Yeni çağırışlar"ın bütün qonaqları ənənəvi təhsilin özünü doğrultmadığını, şagirdlərin marağının kəskin azaldığını etiraf etsələr də Tod Vitaker fərqli düşündüyünü söyləyərək qeyd edib ki, təhsilə yenilik gətirmək əvəzinə daha çox müəllimlərin üzərinə diqqət çəkmək istəyir. O deyib ki, istənilən dövlətdə, ən azı hər üç məktəbdən birində elə müəllimlər var ki, şagirdlərlə uğurlu tədris aparma yollarını bilirlər. Hətta pandemiya şəraitində belə müəyyən məhdudiyyətlərə baxmayaraq keyfiyyətli dərslər keçirlər. "Mən yeni bir şeylər icad etməkdənsə insan amilinə, keyfiyyətli dərslərin aparılmasına üstünlük verirəm. Yeni yanaşmalar artıq var, məsələ yenə keyfiyyətli, yaxşı müəllimlərin üzərində dayanır. Biz sadəcə çalışmalıyıq ki, yaxşı müəllimlərin sayı artsın".

### 7 sirr

C.Mənsimi yazıçının "Müəllimliyin ən gözəl tərəfi bu peşənin əhəmiyyətli olmasıdır, amma ən çətin tərəfi odur ki, bu peşə hər gün əhəmiyyətlidir" fikrinə diqqət çəkərək növbəti sualı verib: "Necə edək ki, bütün müəllimlər öz peşəsinin fərqində olsunlar? Onların müəllim olaraq işə başladıqları ilk gün həyəcanının davam etməsi üçün nələri tövsiyə edərdiniz?". Tod Vitaker qeyd edib ki, müəllimlik peşəsi intensivliyinə görə kifayət qədər mürəkkəbdir, gərgindir. Məhz buna görə tədris günləri 365 gün deyil. Müəllim hər gün eyni missiyayla sinif otağına daxil olur. Təhsildə əsas məsələ yaxşı müəllimlərin sayını çoxaltmaq olmalıdır. Bununla yanaşı səmərəli, keyfiyyətli direktorlar da yetişdirilməlidir. Uğurlu direktor yaxşı müəllimin formalaşmasına təsir edən əsas amildir. "Müəllimlər işdən gedəndə iş yerlərini yox, rəhbərlərini tərk edirlər. Odur ki, təcrübəli direktorlar yetişdirmək üçün onlarda düzgün, doğru bacarıqların formalaşdırılması ilə məşğul olmaq lazımdır. Yaxşı direktor yaxşı məktəb, yaxşı müəllimlər deməkdir, burada liderlik məsələsi çox vacibdir. Bütün bunlar təhsil sahəsində çox önəmlidir"- təhsil məsləhətçisi bildirib.

Aparıcının "Sizin fokuslaşdığınız sahələrdən biri də kadr motivasiyasıdır. "Şagirdlərlə işləyən hər kəs hər gün məktəbə müsbət düşüncə ilə gəlməlidir" deyirsiniz. Telefon enerji topladığı kimi müəllimlər necə enerjilərini artıra bilər?" sualına cavabında professor soyləyib: "Biz insanlara nəzarət edə bilmərik, lakin onlara qarşı münasibətlərimizdə diqqətli olmalıyıq. Biz ağzımızdan çıxan hər kəlməmizə fikir verməliyik. Pis əhvali-ruhiyyədə məktəbə gələn müəllim bunu başqalarına, şagird və tələbələrə sirayət etdirməməlidir. Biz insanlara nəyi doğru etməkdənsə bunu onlara öyrətməliyik, kömək etməli, təlimləndirməliyik".

C.Mənsimi yazıçının məşhur "7 sadə sirr" (Seven Simple Secrets) kitabındakı paylaşdığı 7 sirri sadalayaraq (planlaşdırma, sinifin idarə olunması, tədris, peşəkarlıq, effektiv intizam, nizamlılıq, motivasiya) "İzləyicilərimizlə əsas hansı sirri bölüşərdiniz? Müəllimlərin uğurlu olacağı mühit necə olmalıdır?" sualını qonağa ünvanlayıb. "Mənim bir sözüm var, məktəb direktoru asqıranda bütün məktəb xəstələnir. Biz hamımız insanıq və nədənsə şikayət edirik. Ancaq bir şeyi bilməliyik ki, bunların heç birini şagird və tələbələrə ötürməməliyik. Şagirdlər məktəbə təhsil almağa gəliblər, bizim də vəzifəmiz onlara bilik, elm verməkdir. Düzdür, dəcəl, pis davranışları ilə seçilən şagirdlər də var. Lakin düzgün vərdişlərin formalaşdırılması üçün də təlimlər aparılmalıdır, müəllimləri təlimləndirərək belə şagirdlərlə necə davranmanın yollarını izah etmək mümkündür".

"7 sadə sirr" kitabında vurğuladığı məsələlərə aydınlıq gətirən yazıçı qeyd etdiyi sirlər arasında başlıca olaraq hörmət və ehtiram anlayışlarını xüsusi önə çəkib.O qeyd edib ki, hər bir məktəbdə şagird və tələbələrə hörmətlə yanaşan müəllimlər var. Elə müəllimlər də var ki, müəllim və auditoriya arasında hörmətlə ünsiyyət qurmaq, ehtiramla dərs deməyin mümkünlüyündən belə anlayışı yoxdur. Bu cür müəllimlərə qeyd etdiyimiz məqamların yollarını başa salmaq, anlatmaq lazımdır: "Mən tək təhsil sahəsində deyil, şirkətlərlə, təşkilatlarla da iş aparıram. Sadəcə təhsilə daha çox qayğı göstərirəm, çünki təhsil mənimçün daha önəmlidir. İstər restoran olsun, istər iaşə xidməti, istər otel, oradakı personal müştəriləri xoş qarşılamalı, lazımi diqqət, qayğı göstərməlidir. Odur ki, təhsil ocaqlarında da tələbə müəllimə, müəllim tələbəyə, eləcə də müəllimlər bir-birlərinə hörmət və ehtiram nümayiş etdirməlidirlər".

### Uğurlu direktor və müəllimlər nəyi fərqli edirlər?

Qonaq onu da xüsusi vurğulayıb ki, əgər müəllim effektiv şəkildə dərs keçə bilməyəcəksə, heç bir münasibətdən söhbət gedə bilməz. O müəllim yaxşı sayılır ki, onun hər bir hərəkəti məqsədə doğru, şagirdlərin xeyrinə yönəlib. Eyni zamanda professor yaxşı direktor anlayışına da aydınlıq gətirib: "Yaxşı direktor kabinetində oturub məktəbi idarə edən şəxs deyil. Yaxşı direktor hər gün siniflərə girərək tədris prosesini müşahidə edir, şagird və müəllimlərlə ünsiyyətdə olur. Direktor öz fəaliyyəti ilə müəllimlərə örnək olmalıdır. Bir məqam da var, əgər insan işə yüksək əhvali-ruhiyyə ilə gəlirsə, bu işin keyfiyyətinə də təsir edir. Yaxşı iş gözəl əhvali-ruhiyyə deməkdir, yüksək əhval-ruhiyyə də yaxşı işin təməlidir".

Tod Vitaker həmçinin qeyd edib ki, uğurlu direktor gözləntilərilə deyil, davranışı ilə müdaxilə etməlidir. Yazıçı iki kitabının adını çəkərək "Uğurlu müəllimlər nəyi fərqli edirlər" (What Great Teachers Do Differently) və "Uğurlu direktorlar nəyi fərqli edirlər" (What Great Principals Do Differently) bildirib ki, həmin kitablarda fəsillərin məzmununda bir çox məsələlər üst-üstə düşür. Direktorların müəllimlərlə davranışı, münasibətləri və bir çox mövzulara yanaşması müəllim və şagirdlər arasındakı münasibətlərlə uzlaşır. Direktorlar qeyri müvafiq şəkildə tədris aparan müəllimlərlə davranışlarında necə etik, düzgün rəftar etməlidirlərsə, müdaxilələri də peşəkar olmalıdır. Eləcə də sinifdə şagird qaydaları pozursa müəllim ona qarşı mütləq peşəkar səviyyədə münasibət göstərməlidir. Bütün şagirdlərin gözü müəllimdə olur, ona görə də müəllimin peşəkarcasına müdaxiləsi vacibdir. Müəllimin peşə normalarından kənara çıxmaması çox önəmlidir, etdiyi müdaxilə isə səmərəli olmalıdır.

### On dəqiqədə xidmət

Müəllimləri lider müəllimə çevirən amillərdən bəhs edən professor bildirib ki, müəllimdən bir lider yetişdirmək üçün onu tədrisində peşəkarlaşdırmaq lazımdır, bunun üçün isə fürsət və imkanlar olmalıdır. "Məktəblərdə direktorların sədrliyi ilə iclaslar keçirilməlidir. ABŞ-da bir çox hallarda müəllimlər bu iclaslara əhəmiyyət vermirlər, yüksək dəyərləndirmirlər. Əgər müəllimlərin bütün səlahiyyətləri əllərindən alınırsa, həvəsləndirmə tətbiq edilmirsə, müəllimlərdən də şagirdlərə qarşı keyfiyyətli tədris gözləmək olmaz. Direktor müəllimini düzgün idarə edə bilmirsə, müəllimlər növbəti iclasa, dərsə həvəslə, şövqlə getmir, təbii ki bu zaman şagirdlərdən də həmin şövqü gözləmək çətindir. Direktorun yanaşması çox vacibdir. Müəllimlərin lider olması üçün şərait yaradılmalıdır. Prosesin uğurlu olması məqsədilə müəllimlərdə həvəs oyadılmalıdır ki, onların tədrisinin də konkret nəticəsi olsun".

Aparıcı C.Mənsimi təhsil liderinin "On dəqiqədə xidmət" (The Ten-Minute Incervice) kitabında on dəqiqədə necə təkmilləşdirmə etmək mümkündür fikrinə aydınlıq gətirilməsini istəyib. Tod Vitaker bildirib ki, yaxşı müəllimlər hər bir vəziyyəti öncədən düşünürlər, digər müəllimlər isə baş vermiş hadisəyə reaksiya verirlər. Yaxşı müəllim şuluq, qaydaları pozan şagirdlərdən özünü uzaqlaşdırmır, əksinə, onlarla ünsiyyət qurmağa çalışır. "Mənim kitabımda əsas məqsəd odur ki, on dəqiqə olsa belə müəllimlərlə söhbət etsək bunun çox müsbət nəticəsi olacaqdır. Qısa olmasına baxmayaraq düzgün istiqamət və müdaxilələr nəticəsində tədrisdə böyük müsbət dəyişikliyin şahidi oluruq".

### Müsbət məktəb mühiti

Məktəbdaxili mədəniyyət və müsbət məktəb mühiti məsələlərinə də toxunan təhsil lideri onu da qeyd edib ki, bu məsələlərə yanaşmada ölkədən ölkəyə fərq var: "Məsələn, ABŞ-da belə bir ənənə var ki, müəllimlər tədris günündən öncə şagirdləri salamlayırlar. Bu yaxşı münasibətlərin təməlidir. Bir çox müəllimlər bunu tədris ilinin əvvəlində etsələr də, sonra bezirlər və təkrar etmirlər. Yəni, yaxşı mühit yaratmaq istəyən müəllim şagirdlərlə dostcasına salamlaşmalı, onlarla yaxından ünsiyyətdə olmalıdır və beləcə məktəbdaxili mədəniyyətin formalaşmasına təsir etməlidir. O, həmçinin məktəbdaxili mədəniyyətin başlıca amillərindən birinin təhsil ocağının rəhbərinin yalnış davranışa dözümlülüyü və dözümsüzlüyü olduğunu bildirib. Alimin fikrincə, münasibətləri tənzimləməzdən öncə münasibəti qurmaq lazımdır. Bunun üçünsə ən uyğun vaxt tədris ilinin əvvəli hesab olunur. "Biz tədris ilinə başlayanda məğlubiyyət nədir bilməyən komanda kimi başlayırıq. Şagirdlərlə, valideynlərlə düzgün münasibət qurulmalıdır ki, sonradan qarşılıqlı etibar və etimad yaransın. Etibar etmədiyiniz, etimad göstərmədiyiniz şəxslə münasibət yaratmazsınız. Bu cür münasibət direktor və müəllim, şagird və müəllim arasında da qurulmalıdır".

"Yeni çağırış"çı C.Mənsimi qeyd edib ki, məktəb mədəniyyəti və müsbət məktəb mühiti dedikdə ağıla həm də özünü aid etmək məsələsi gəlir. Bəs necə edək ki, həm müəllimlər, həm şagirdlər özlərini məktəbə aid hiss etsinlər? Bu sualı cavablandırarkən professor bildirib ki, ABŞ-ın bir çox ştatlarında müəllimləri onlara aid olub-olmayan günahlarda ittiham edirlər, onları lazımi qayğıdan məhrum edirlər, kifayət qədər ödəniş etmirlər, digər problemləri ilə maraqlanmırlar. Belə bir şəraitdə müəllimin məktəbə aid olduğunu söyləmək çətindir. Müəllimə sahib çıxmaq lazımdır ki, o da özünü məktəbə aid hiss edə bilsin. Müəllimlərin xüsusi, əhəmiyyətli olduğunu vurğulamaq, onlara sayqı göstərmək vacibdir, bu zaman onlar tədris prosesinə diqqətlə yanaşacaqlar.

### 8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi "Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar?" sualına cavab olaraq Tod Vitaker şərəf və ləyaqət, hörmət, ehtiram, müsbət praktikanın gündəlik tətbiqi, həvəsləndirmək, motivasiya, qayğı, özünütənqid kimi məsələləri sadalayıb: "Təəssüf ki, müasir dünyada ədəbsizlik, ikrah hissi çoxalır. Biz məktəblərdə cinsindən asılı olmayaraq istənilən yaş insanlar üçün qayğını aşılamalıyıq. Həmçinin biz öz qayğımıza qalmalıyıq, bir-birimizlə yaxşı yola getməliyik. Qızlarımla (Madeline Whitaker, Katherine Whitaker) mən bir neçə kitabın müəllifiyik. Kitablarda ana xətt olaraq qeyd olunur ki, əgər siz müəllimləri motivasiya edə bilmirsinizsə, bütün bunların səbəbini özünüzdə axtarmalısınız. Dəyişiklik etmək istəyən şəxs güzgüdə tez-tez özünə baxmalıdır. Bir əsas məqam da budur ki, məktəb cəmiyyətin arxasınca düşməməlidir, məktəb özü nümunəvi cəmiyyət olmalıdır".

Görüşün sonunda "Yeni çağırışlar" proqramının koordinatoru C.Mənsimi təcrübələrini paylaşdığı üçün qonağa, eləcə də proqramı dəstəkləyən Təhsil Nazirliyinin rəhbərliyinə, əməyi keçən hər kəsə sonsuz təşəkkürünü bildirib.

Tod Vitaker proqramda iştirak etməsindən məmnunluğunu bildirərək son dönəmlərdə Azərbaycanda fantastik, təqdirəlayiq dəyişikliklərin baş verdiyini və bu proseslərə verəcəyi töhfələrdən şərəf hissi duyduğunu dilə gətirib.

**Lamiyə ƏLİMƏRDANOVA**

**Şəhid məzunlar**



**Mingəçevir Dövlət Universitetində (MDU) təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi məqsədilə yaradılan Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi qəhrəman şəhid və qazilərimizin gənc nəslə tanıdılması, onların göstərdikləri şücaətlərin təbliğ edilməsi istiqamətində müxtəlif formatlı fəaliyyətlərin həyata keçirilməsinə start verib. Sözügedən fəaliyyətlər çərçivəsində şərəfli döyüş yolu keçən MDU ailəsinin qəhrəman üzvlərinin həyat hekayələrinin işıqlandırılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Mərkəz tərəfindən silsilə yazıların və reportajların hazırlanmasına xüsusi diqqət yetirilir. Vətəninə, dövlətinə və xalqına bağlı layiqli vətəndaş kimi yetişməsi üçün gənclərə örnək olan qəhrəmanlarımız haqqında ilk yazı MDU-nun şəhid məzunu Nəcəfli Oruc Rövşən oğluna həsr edilib. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Əsgərinin qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər Azərbaycan xalqının gücünü, birliyini və yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirdi. Doğma Qarabağımızı işğaldan azad edərək otuzillik yurd həsrətinə son qoyan cəsur zabit və əsgərlərimiz canları və qanları bahasına yeni tariximizin şanlı səhifələrini yazdılar. Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizdən biri də MDU-nun məzunu Oruc Nəcəflidir.**

# Şəhid Oruc Nəcəfli: “Qələbədən sonra sizi aparacağam Mingəçevirə”

## İgid əsgər döyüşçü yoldaşlarının xatirələrində

1989-cu il oktyabrın 6-da Yevlax rayonunun Tanrıqulular kəndində anadan olan O.Nəcəfli 1996-2007-ci illərdə Mingəçevir şəhərində Nizami Gəncəvi adına 8 nömrəli tam orta məktəbdə təhsil alıb. O, 2007-ci ildə Mingəçevir Politexnik İnstitutunda (indiki Mingəçevir Dövlət Universiteti) “İnformatika və hesablama texnikası” ixtisası üzrə bakalavriat səviyyəsinə qəbul olub və 2011-ci ildə ali təhsilini başa vuraraq hərbi xidmətə yollanıb. Kəşfiyyatçı vəzifəsində hərbi xidmətdə olduğu bir il ərzində hər zaman yüksək fiziki hazırlığı ilə fərqlənib.

Hərbi xidmətdən sonra, 2012-ci ildə qəhrəmanımız yaşadığı Mingəçevir şəhərində yerləşən və atasının uzun illər mühəndis vəzifəsində işlədiyi “Azərişıq” ASC-də əmək fəaliyyətinə başlayıb. 2016-cı ildə atasını itirən O.Nəcəfli onun yolunu davam etdirirdi.

Oxuduğu məktəbdən, təhsil aldığı universitetdən, xidmət etdiyi hərbi hissədən və çalışdığı iş yerindən hər zaman valideynlərinə Orucun yüksək əxlaqi keyfiyyətləri barədə təşəkkür gəlirdi. O, nümunəvi gənc idi.

2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda, həmçinin Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə savaşan O.Nəcəfli oktyabrın 17-də “Tülkü dərəsi” adlandırılan ərazidə şəhid olub. Noyabrın 6-da Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən O.Nəcəfli ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib.

Ailəsinə çox bağlı olan şəhid O.Nəcəfli dəfn edilərkən tabutuna sarılan üçrəngli müqəddəs Azərbaycan bayrağı bacısı oğlu Ramilə əmanət edilib. Dayısının əmanətini şərəflə daşıyan Ramil və qardaşı Sübhan böyüyəndə vətənə və millətə layiq övlad olacaqlarına, hər zaman onlarla məşq edən və onlara döyüşməyi öyrədən qayğıkeş dayılarının etimadını doğruldacaqlarına söz veriblər.

### “Narahat olmayın, mən yaxşıyam”



Orucla bərabər könüllü olaraq cəbhəyə yollanan bacısının həyat yoldaşı Kamil Cavadov orduya çörək daşıdığı üçün hər dəfə fərqli hərbi hissələrdə olduğunu, Onunla görüşə bilmədiyini, tez-tez telefon əlaqəsi saxladığını deyir. Kamil xatirələrini qürurla paylaşaraq, Orucun Vətən sevgisindən, müharibənin başlanacağı günü səbrsizliklə gözləməsindən danışıb. Orucun hər zaman işğal altında olan əzəli torpaqlarımızın azadlığını arzuladığını deyən K.Cavadov onun sonuncu dəfə ailəsi ilə əlaqə saxlamasından söz açıb. 2020-ci ilin oktyabr ayının 15-də ailəsi ilə telefon danışığında son sözləri “Narahat olmayın, mən yaxşıyam” deməsi olub.

### “Bir azdan döyüşə gedəcəyik, güclü olmalıyıq”

Vətən müharibəsində Oruc Nəcəfli ilə çiyin-çiyinə vuruşan Vüsal Hacı-Abduləlimov onunla bağlı xatirələrini bölüşüb: “Bizə dəstək üçün bir neçə əsgər gəlmişdi. Oruc da həmin əsgərlərin arasında idi və onunla o zaman tanış olduq. O, çox mərd yoldaş, sözün əsl mənasında, hər birimizə qardaş idi. Gecə saat 3-4 radələrində bir də görürdük ki, bizə çörək, su gətirir,“qardaşlarım, bir azdan döyüşə gedəcəyik, güclü olmalıyıq” deyirdi. Oruc çox ürəkli oğlan idi, geriyə yol tanımırdı və yalnız irəliyə baxırdı”.

Bir gün Orucun qızı Rövşanə ilə telefon danışığını eşitdiyini xatırlayan Vüsal o səhnəni əsla unutmayacağını deyir: “Oruc telefonda “gözəl qızım” deyərək övladını oxşaya-oxşaya danışırdı. Telefon danışığını bitirdikdən sonra, mənə qızı ilə danışdığını və hələ təzə-təzə “ata” deməyə başladığını söyləyəndə, çox kövrəldim. Tez-tez qızı ilə xatirələrindən danışardı və biz də maraqla dinləyərdik. Bir dəfə, “qələbədən sonra sizi aparacağam Mingəçevirə və Rövşanə igid qəhrəman əmilərini görüb tanısın” deyəndən sonra Oruc bir kənara çəkildi və gözləri doldu...”.

Qapanlı kəndində olduqları vaxtlarda düşmənin Tərtəri ələ keçirmək məqsədilə bir neçə dəfə hücuma cəhd etdiyini qeyd edən Vüsal qəhrəman əsgərlərimizin sayəsində ermənilərin çoxlu sayda canlı qüvvə itirərək geri çəkildiyini bildirib. Döyüşlərin birində müxtəlif istiqamətlərə bölündüklərindən ara-sıra bir-birlərindən xəbər tutduqlarını deyən Vüsal sonradan Orucun şəhid olduğunu biləndə sarsıldığını dilə gətirib: “İnanmaq çox ağır idi. Orucun Şəhid xəbəri bizi çox sarsıtsa da qazandığımız qələbə ilə bütün şəhidlərimizin qisasını aldıq və qanlarını yerdə qoymadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

### “Mehriban, qayğıkeş insan idi”

Orucla Tərtərin Qapanlı kəndində bir postda döyüşən Bahadur Abdullayev qəhrəmanımızı belə xatırlayır: “Oruc yaşca bizdən böyük idi. Onu bizə manqa komandiri təyin etmişdilər. Çox ünsiyyətcil, mehriban, səmimi və qayğıkeş insan idi. Şəhidlər Allah qatında seçilmiş olur, deyirlər. Hər adama şəhidlik zirvəsi qismət olmur. Oruc mərdliyi ilə yanaşı, insanlığı və vətənpərvərliyi ilə də bizə örnək idi. O, səhərə kimi oyaq qalaraq növbələri dəyişirdi, hər növbəyə çıxan uşaqlara çay hazırlayıb verirdi. Hamını özünə qardaş bilirdi və heç kim onun sözündən çıxmırdı”.

Birlikdə iki döyüş əməliyyatında iştirak etdiklərini bildirən Bahadur birinci döyüşdə Orucun şücaətindən, qorxmazlığından bəhs edir, yaralı və şəhid əsgər yoldaşlarının döyüş meydanından çıxarılmasında göstərdiyi mərdlikdən söz açır.

### “Orucu soruşanda şəhid olduğunu söylədilər”

Bahadur Suqovuşandan sonra qarşıdakı yüksəklikdə olan düşmən bölüyünə hücum zamanı Orucla bərabər iştirak etdiyi ikinci döyüşün yaddaşından heç zaman silinməyəcəyini deyir: “Gecə saat 12-dən səhər 7-ə kimi yol getmişdik. Çatan kimi döyüşə başladıq. Ermənilər minaatanlardan atəş açırdılar. Yüküm çox ağır olduğundan, yorulmuşdum və yerə uzanıb bir qədər nəfəsimi dərdim. Bu zaman Oruc mənə yaxınlaşaraq “bir yerdə dayanma, vuracaqlar” dedi və irəliyə doğru uzaqlaşdı. Düşmən yüksəklikdən bizi açıq-aydın gördüyündən, mövqelərimizi çox sıx atəşə tuturdu. Buna baxmayaraq irəliləməyə davam edirdik. Nəhayət, Orucla bərabər bir neçə əsgərimiz posta daxil oldu və çoxlu sayda ermənini məhv etdilər. Posta doğru çox az bir məsafədə yaralandığım üçün hərəkət edə bilmirdim. Uşaqlar köməyə gəlib, məni çıxardılar. Onlardan Orucu soruşanda posta atılan mərmi nəticəsində şəhid olduğunu söylədilər. Allah məkanını cənnət eləsin”.

Torpaqlarımızın azad edilməsi, vətənimizin bütövlüyü uğrunda canından və qanından keçərək müqəddəs şəhidlik məqamına yüksəlmək ən böyük şərəf və qürur hesab edilir. MDU-nun məzunu Nəcəfli Oruc Rövşən oğlunun da taleyinə Vətən müharibəsində qeyrət, hünər və qəhrəmanlıq simvolu olan şəhidlik zirvəsinə qovuşmaq yazılıb.

Qeyd edək ki, hər birimizə sonsuz sevinc və fəxarət hissləri bəxş edən tarixi zəfər yürüşündə MDU-nun 4 əməkdaşı, 120-dən çox tələbə və məzunu iştirak edib, 5 məzunu isə şəhidlik zirvəsinə ucalıb.

Müstəqilliyimiz, suverenliyimiz, azad və xoşbəxt gələcəyimiz uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələrini yaşatmaq, onların adlarını daim uca tutmaq və müasir gəncliyə nümunə göstərmək hər bir azərbaycanlının mənəvi və vətəndaşlıq borcudur.

*Boy verir ürəkdə hünər nəğməsi,*
*Nəsillər dinləyir bu məğrur səsi.*
*Şəhidlər - Vətənin qələbə rəmzi,*
*Şəhid oğulları Vətən yaşadır!*

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Mingəçevir Dövlət Universiteti**
**Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi**



Qarabağ gündəliyi

# “Savaşda qazandığımız qələbələr ən böyük stimulumuz idi”

*Ruslan Ağamalıyev:*
“Arxa cəbhədən gələn dəstək gücümüzə güc qatırdı”

Vətən müharibəsi Azərbaycan tarixinin daim qürurla vərəqləyəcəyimiz şanlı səhifələridir. 44 səhifədən ibarət olan bu fəslin hər cümləsində, hər sözündə əməyi, qanı-canı olanlar var. Həmin fədakarların arasında müəllimlər xüsusi yer tutur. “Azərbaycan müəllimi”nin “Qarabağ gündəliyi”ndə növbəti müəllim qonağı Vətən müharibəsi iştirakçısı Ruslan Ağamalıyevdir. Bakının 157 nömrəli tam orta məktəbin fəal müəllimlərindən olan Ruslan Ağamalıyev döyüşçü kimi də öz sözünü deyib. Mayın 15-də 43 yaşını qeyd edən Ruslan müəllim Ermənistan SSR-in Sisiyan rayonunda anadan olub. Bakıya 80-ci illərdə gəliblər. Müəllim atası Bakıda iş tapıb və tale ailənin yolunu Azərbaycanın paytaxtına salıb. O vaxtdan Bakı sakini olan R.Ağamalıyev 20 ilə yaxındır ki, müəllimdir.

### Müəllim olmaq istəyirəm

Atası kimi müəllim olacağına qərar verəndə hələ yeniyetmə çağlarındaydı. Odur ki, 1995-ci ildə 144 nömrəli tam orta məktəbin məzunu olandan sonra sənədlərini ali təhsil müəssisələri üçün keçirilən qəbul imtahanlarına hazırlayıb və həmin ilin qəbul nəticələrinə görə Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil almağa başlayıb. Hazırda təhsilini davam etdirir. 157 nömrəli tam orta məktəbin müəllimi olmaqla yanaşı, AMEA-nın Tarix İnstitutunun dissertantıdır.

### Silah yox, kitab

Müəllim kimi hər zaman seçilib, ölkəmizi təmsil edə biləcək müəllimlərin sırasında olub. Təhsil Nazirliyinin xətti ilə dəfələrlə beynəlxalq konfranslara qatılıb. 2010-cu ildə Polşanın Varşava şəhərində Avropa Yəhudilərinin soyqırımı ilə əlaqədar “Memory of Genocide”, 2012-ci ildə isə Almaniyanın Frankfurt şəhərində “Beeing of a teacher in 2034” adlı tədbirlər onun qatıldığı konfransların ən yaddaqalanları olub.

Uşaqlığından silahı yox, kitabı sevib. Kitaba bağlılığı onu əvvəlcə müəllim, sonra müəllif edib. Ruslan müəllim XIX-XX əsrin dünyasına öz baxış bucağından baxıb və fikirlərini “Dünya əsrlərin qovşağında” kitabında əks etdirib. 2014-cü ilin dekabr ayında işıq üzü görən kitab onu ictimaiyyətə həm də müəllif kimi tanıtdırıb.

### Yarış qalibi müəllim

Ruslan müəllim hərtərəfli yetişdirilib. Sadəcə akademik göstəriciləri yox, fərqli bacarıqlarının formalaşması, ən əsası, sağlam həyat tərzinə sahib olması üçün müəllim atası onu düzgün yönləndirib. Nəticədə məktəbdə fəaliyyəti kitab oxuyub, dərs hazırlayıb, müəllimlərinin tapşırıqlarını yerinə yetirməklə məhdudlaşmayıb. Məktəbdə güləşlə məşğul olub, şahmat oynayıb, müxtəlif səpkili tədbirlərə qatılıb. Şagirdlər arasında fəallığı ilə seçilən Ruslan Ağamalıyevin yarış ruhu müəllim olandan sonra da yüksək qalıb. Məsələn, 2015-ci ildə Binəqədi məktəblərinin müəllimləri arasında dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş şahmat yarışına qatılıb və I yerin qalibi olub.

### “Heç ova da getməmişdim”

Şahmatdakı bacarığı yarışda onu qalib edibsə, güləşdə qazandıqları da savaşda köməyinə gəlib. Ruslan müəllim müvəqqəti də olsa, qələmi yerə qoyub silah götürüb əlinə.

Vətən müharibəsi iştirakçısı Ruslan müəllimin silahla ilk tanışlığı həqiqi hərbi xidmətdə olub. 2002-2004-cü illərdə Füzuli rayonunda zabit olaraq xidmət keçib. Silahı bir gün əlinə alacağına, buna məcbur qalacağına hələ o vaxtdan əmin olub: “Tarix müəllimiyəm. Hətta müəllim olmasam da, tarixə həmişə xüsusi marağım olub. Təəssüf ki, qonşularımızla illərdir davam edən problemi bilmək üçün tarix oxumağa, tarix bilməyə də ehtiyac yoxdu. Bütün dövrlərdə, hər nəsil, demək olar ki, erməni düşmənçiliyi ilə qarşılaşdığından millət olaraq başımıza nə gəldiyini də, bizi nə gözlədiyini də yaxşı bilirdik. Başqa sözlə, nə işlə məşğul olmağımızdan asılı olmayaraq, bir əlimizin silaha məhkum olduğunu başa düşürdük. Məni də işğal altında olan torpaqları azad etmək hissi silaha bağladı. Halbuki silaha marağım heç vaxt olmayıb, təsəvvür edin ki, heç ova belə getməmişəm. Öyrənərkən də, işlədərkən də silah mənim torpaqlarımızı azad etmək üçün əl atdığım bir yol olub. Düşmənə münasibətdə silahın da mahiyyəti dəyişir”.

Ruslan müəllim 2015-ci ildə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən çağırış alıb. Amma o vaxt döyüşə getmək qismət olmayıb. İkinci dəfə Vətən müharibəsi başlayanda çağırılıb: “Zəng gəldi. Dərhal çantamı yığıb getdim”.

Sentyabrın 21-də təlimlərə qatılıb, dekabrın 31-də tərxis olunub. Bu müddət ərzində Füzuli-Cəbrayıl-Xocavənd-Qızıl bazar istiqamətində gedən döyüşlərdə cəsarətlə iştirak edib. Cəbhədə motoatıcı tağım komandiri olan tarix müəlliminin keçdiyi döyüş yolu unudulmaz xatirələrlə doludur: “Yüksəkliklər uğrunda əməliyyatlara qatıldım. Hər döyüş dəhşətliydi. Orda nə yaşadığımızın, nə hiss etdiyimizin fərqinə vara bilmirdik. Hisslərimiz qarışırdı”.

### Sevinclə kədər qarışanda

Cəbhədə olmaq müxtəlif hissləri eyni vaxtda yaşamaq deməkdir. Silahdaşının şəhadətə yüksəlməsinin kədəriylə hansısa strateji mövqedə möhkəmlənməyin sevincini eyni vaxtda yaşayanlardan biri də Ruslan müəllim idi: “1-2 gün adaptasiya olunana qədər döyüş çətin gəlir. Ancaq sonra adiləşir. Həvəslə döyüşürdük. Hər kəs döyüşə atılırdı. Ən ağır döyüşlərimiz Qırmızı bazar ətrafında oldu. Orada düşmən xüsusilə möhkəmlənmişdi. Bir neçə eşelonla müdafiə olunurdu. Yüksəkliklər düşmən əlində olduğundan hücum çətinləşirdi. Buna baxmayaraq, həmin döyüşlərdə fərqlənən, xüsusi qəhrəmanlıq göstərənlər oldu. Sərxan Kərimov, Oruc Abbasov xüsusilə fəal idilər. Bölük komandiri şəhid Samir Şükürov Qırmızı Bazarın düşməndən azad edilməsində böyük qəhrəmanlıq göstərdi. Şəhidlərimizi, döyüşlərdə yaralanan yoldaşlarımızı unutmaq çətindir. Döyüşdə hər birinin itkisi bizi sarsıdır, intiqam hissi oyadırdı. Qazandığımız qələbələr ən böyük stimulumuz idi. Arxa cəbhədən gələn dəstək isə gücümüzə güc qatırdı. Ordunun gücünü xalqdan aldığı barədə indiyədək dediklərimizi, yazdıqlarımızı yaşayırdıq. Qürurlu günləriydi. Hələ döyüşdən qalib olaraq qayıtdıqda görəydiniz. İnsanlar necə böyük ruh yüksəkliyi ilə qarşıladı bizi. Məktəbimizdə kollektivimizin, yaşadığımız məhəllədə qonşularımızın, yaxın ətrafımızın bu müharibəyə, ordumuza, döyüşən hər kəsə münasibəti ağlıma gəldikcə qürurlanıram...”.



### Yetişdirdiklərimizlə qürur duyacağıq

Şəhid, yaralı, minamyot səsi, qulaqbatırıcı partlayışlara alışmaq asan olmayıb”.

Ruslan müəllim artıq şagirdlərinin önünə keçib yazılan və yazdıqları tarixdən danışır. Yəqin ki, düşmən qarşısında keçən 44 gün Ruslan müəllimin 40 il sonra da qürurla xatırlayacağı xatirəyə çevrilib. Bundan sonrasına gəlincə, Ruslan Ağamalıyevin müəllim kimi çox böyük planları var. Axı, sülh şəraitində də, müharibə vəziyyətində də millətə bağlılığını, vətənə sevgisini heç vaxt unutmayacaq vətənpərvər nəsil yetişməlidir. Bir müəllim müharibədən yox, yetişdirdiyi ağıllı, dünyagörüşlü, qərarlı, vətənə və millətinə bağlı yetirmələrindən zövq ala bilər. O da məhz bunu edəcək!

**Ruhiyyə DAŞSALAHLI**

# Qürurun, iftixarın, şərəfin təntənəsi



## “Xarıbülbül” musiqi festivalını seyr edərkən

**Nurlana ƏLİYEVA,**

*Bakı Slavyan Universitetinin rektoru, professor, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü*

2021-ci il 12-13 may tarixləri mədəniyyətimizin rəmzi, paytaxtı, Azərbaycan musiqisinin beşiyi Şuşa şəhərində tarixi “Xarıbülbül” musiqi festivalı əbədilik xalqımızın həyatına həkk edildi.

Azərbaycan heç bir zaman belə möhtəşəm Ramazan bayramı yaşamamışdı.

Azərbaycan heç bir zaman xalqın ürəyinin alovundan, odundan vulkan kimi püskürüb alışan, düşmənlərimizin ürəyinə od salan belə atəşfəşanlıq görməmişdi.

Azərbaycan festivalı tarixin heç bir dönəmində düşmənin yaralarına belə duz basmamışdı.

Azərbaycan heç bir zaman dostlarımızın ürəyindən bu qədər tikan çıxartmamışdı.

Şuşada keçirilən “Xarıbülbül” musiqi festivalında seçilib səslənən bu ilahi bəstələr, ifalar sanki sıldırım qayaların, zümrüd meşələrin, yaşıl dərələrin rübabının öz səsi idi!

Vaqifin, Natəvanın intizarının, hicranının son sətirləri idi!

Üzeyirin, Bülbülün həsrətinin, kədərinin son akkordları idi!

Bu festival bir qərinəyədək hər bir azərbaycanlının ürəyində qaysaq bağlanmış yaraların məlhəmi idi!

Ölkənin hər bir vətəndaşının qəlbindən qopan sevinc, səadət, xoşbəxtlik hayqırtıları idi!

Xarıbülbülün özünün bəstələdiyi şikəstəsi idi!

Bu möhtəşəm festivalı seyr etdikcə gözlərimizdə sevincdən şəlalələrə çevrilib çağlayan suların gurultusu idi!

Başı buludlara dəyən Şuşa dağlarındakı ürəyimizin əks-sədası idi!

Nə qədər böyük eşqi, həsrəti varmış ürəklərdə mədəniyyətimizin rəmzi olan bu şəhərin! Polad Bülbüloğlunun nəğməsində səslənən “Gəl, ey səhər!” sətirləri Şuşalı qəlbimizin qəmdən, kədərdən azad vüsal nəğmələrinin sevincinə qoşuldu! Müzəffər Azərbaycanımızın səadətinə şahidlik etdi.

Dühası ilə xoşbəxtliyimizin təməlində əbədilik kəsb etmiş Ulu Öndərimizin ruhunun Şuşa səmalarında pərvaz etdiyi kimi!

Bu səadəti canları, qanları ilə millətə yaşadan şəhidlərimizin müqəddəs xatirəsi kimi! And yerimiz olan rəşadətli Ordumuzun igid oğulları kimi!

Bu bayramı sevinc göz yaşları axıtmadan izləmək iradəmizdən xaric idi...

Tarixin qızıl səhifələrinə yazılacaq bu festival Azərbaycanın qüdrətli, hünərvər, zəkalı, dühalı igid Prezidentinin ovxarlı qılınc kimi iti ağlının barıdır!

Onun 17 ildən artıq dünya diplomatiyası ilə çəmərd mübarizəsinin ədalətli yekunudur.

Azərbaycan Prezidentinin öz xalqına yaşatdığı qürurun, iftixarın, şərəfin bayramıdır!

44 günlük Vətən uğrunda gedən və böyük Zəfərlə nəticələnən savaşın Qalibiyyət marşıdır!

Bu bayram Ulu Tanrının bütün Azərbaycana əta etdiyi böyük məhəbbətin lütfüdür!

İllərlə ağlar qalmış Şuşamızın sevincdən, bəxtiyarlıqdan açılan ikinci nəfəsidir!

Zehinlərdə əbədi yaşayacaq, ürəklərin sarı simində çalınacaq milyonların unudulmaz şərqisidir!

Qoy bütün dünya Azərbaycanın ləyaqətini, mədəniyyətini, qalibiyyətini indi də “Cıdır düzü”ndən izləsin!

Qoy yaman gözləri, qısqanc nəfəsləri, həsədli baxışları qaytaran möcüzəli üzərlikdən tonqallar qalansın!

Qoy bu gün “Yuxarı Gövhərağa”, “Şuşa məscidi”ndəki ziyarətlər, namazlar, ibadətlər həyatımızı bəlalardan hifz edən böyük Tanrıya inamımızı, onun ədalətinə şükranlığımızı səmalara ucaltsın, müqəddəs ünvana çatdırsın!

Qoy bu bayram namazları məşəqqətdən, işğaldan azad torpaqlarımızı Böyük Yaradanın pənahında saxlasın!

Xoşbəxt Şuşamızın dünyada misli-bərabəri olmayan əfsanəvi gözəllikləri qoynunda, atanın müqəddəs vəsiyyətini həyata keçirmiş xoşbəxt Prezidentimizin təşəbbüsü ilə keçirilən “Xarıbülbül” musiqi festivalı milyonlarla izləyicilərini sehirləyən, bütün dünyanı heyrətə salan qeyri-adi bir təxəyyülün təntənəsi idi!

Bu mənzərə yaradıcı insan fantaziyasından çox-çox yüksəkdə duran ilahi düşüncənin məhsulu idi.

İnsan baxdıqca riqqətə gəlir, bu inanılmaz möhtəşəmliyin xəyalmı, doğrumu olduğunu ayırd edə bilmirdi.

“Cıdır düzü”ndə zümrüddən tökülmüş ucu-bucağı görünməyən möhtəşəm bir zal!...

Sevincdən və riqqətdən gözləri yaşla dolmuş iştirakçılar, - incəsənət, siyasət adamları, xarici qonaqlar...

Ön cərgədə bu tarixi möcüzənin, xoşbəxtliyin qüdrətli, istedadlı qəhrəman müəllifi Cənab Prezidentimiz, sağ tərəfində uzun illər zərif çiyinlərini böyük çətinliklərə dayaq vermiş, ən ağır məqamlarda insanlarımızın ümid, güvənc yeri, Azərbaycan milli-mənəvi dəyərlərinin hamisi, nəcib əməlləri ilə milyonların məhəbbətini qazanmış xanım Mehriban Əliyeva, onların övladları, incəsənət xadimləri, - məhəbbətdən, riqqətdən, bəxtiyarlıqdan, qarışıq duyğulardan yerə-göyə sığmayan insanlar!...

Bu, bir röya idimi, yoxsa əfsanəvi həqiqət?!

Bu yuxunu xalqımız bəlkə 30 il ərzində hər gün, hər gecə görürmüş? Sonra da bu xəyalın arzusu ilə ürəklər göynəyirmiş?!

Yox, bu, röya deyil, bu, böyük dühа sahibi olan möhtərəm, əziz Prezidentimizin inanılmaz qüdrətinin, öz xalqına, millətinə, Vətəninə, Dövlətinə sahilsiz məhəbbətinin lütfüdür! Onu ürəkdən sevən milyonların sarsılmaz sevgi ilə çağlayan qəlblərinin simfoniyasıdır!

İllərlə ürəklərdə sırınsımış zəhərin zərərsizləşdirilməsinə çarə edən iksirdir!

Bu festival qəlbimizdəki mətləblərin, məqsədlərin, niyyətlərin qarşısına nida işarələri qoydu!!!

Biz qalib ölkənin əhalisiyik!

Biz mütərəqqi Dövlətin vətəndaşlarıyıq!

Biz öz milli ləyaqətini qorumaq uğrunda canından keçməyə hazır olan xalqın övladlarıyıq!

Biz Qarabağ torpaqları uğrunda, doğma Azərbaycanımız uğrunda həyatlarını qurban vermiş şəhidlərimizin qardaşlarıyıq!

“Əziz Şuşa, biz səni dirçəldəcəyik!” Bu anda sadiq Prezidentimizin nurlu əməllərinin həyata keçirilməsində əməli addımlar atmağa hazır olan gənclər ordusunun nümayəndələriyik!

Biz Vətənimiz Azərbaycanın tərəqqisi, inkişafı və yüksəlişi naminə Dövlətimizin və möhtərəm Prezidentimizin ideyaları uğrunda, bu ideyaları həyata keçirmək naminə biliyimizi, bacarığımızı, gücümüzü həsr etməyə qadir qüdrətli bir ordunun sədaqətli, vətənpərvər əsgərləriyik!

Bizim qürurla tamaşa etdiyimiz “Xarıbülbül” musiqi festivalının sədaları qulaqlarımızda ömürlük qalacaq:

Biz Bakı Slavyan Universitetinin müəllimləri, alimləri, 1000 nəfərdən artıq Könüllüləri o gözəl nəğmələri qəlbimizdə həyatımızın himni kimi hər zaman səsləndirəcəyik: Sənə qurban canımız, Azərbaycan elləri!...

# Təhsilə gedən yol mütaliədən keçir

**Tünzalə QULİYEVA**

Cəmiyyətin formalaşması və inkişafında insan faktoru əsas rol oynayır. Bu amil ümumbəşəri təkamülün əsas hərəkətverici güc strukturudur. İnsan zaman keçdikcə müəyyən nailiyyətlərə imza atır, yeni kəşflər edir. Onun cəmiyyətə verəcəyi faydalar danılmazdır. Cəmiyyətin açarı, özülüdür. İnsanın şəxsiyyət kimi formalaşmasında onun yaratdıqları, yaradıcılığının rolu əvəzolunmazdır. Bütün bu təkmilləşmə prosesinin təməl mərkəzi təhsildən, tərəqqidən başlayır. Əgər bir insan yaxşı təhsil alırsa, o cəmiyyətdə faydalı şəxsiyyət kimi formalaşacaq. Belə ki, hər uğurun başlanğıcı təhsildən, tədrisdən qaynaqlanır. Məktəb bunun təməl prinsiplərinin kökündür. Məktəbə ilk qədəm qoyduğundan o, bir şəxsiyyət kimi formalaşmağa başlayır. İnsanın təhsil aldığı mərhələdə əsas rol birbaşa tədrisin formasından, həmçinin insanın ətraf aləmə yanaşma tərzindən asılıdır. Zamanla onun kitab alışqanlığının yaranması təhsilinə də təsir göstərir. Kitaba olan marağı mütaliəsinə yol açır. Mütaliə insanın öz həyatında formalaşdırdığı faydalı vərdişdir. Mütaliəyə marağın artması məktəbdən qaynaqlanır. Artıq belə bir mühitin formalaşması çox gözəl mənzərədir. Kitab təbliği bilavasitə geniş oxucu kütləsinin yaranması ilə nəticələnir. Həmçinin, kitab dükanlarında növbə sırasının çoxluğu insanda əvəzolunmaz hisslər yaradır. Kitaba sevgi mütaliəyə olan tələbatı artıracaq.

Mütaliə, fərdi inkişaf prosesi olsa da, cəmiyyətin inkişafına, sağlam düşüncə mühitinin yaranmasına, cəmiyyətin sosial həyatına, yeni ideyaların yayılmasına, ictimai marağa, bütövlükdə hamının mənəvi sərvətinə çevrilməsinə imkan yaradır. Aydın məsələdir ki, hər bir insanın özünəməxsus maraq dairəsi olur. Bu da onun mütaliə tələbatının formalaşmasında, reallaşmasında mühüm rol oynayır. Mütaliə insanda düzgün təfəkkürün yaranması ilə nəticələnir. Bu sırada C.Brunonun fikri yada düşür. "Əsl təhsil yalnız mütaliə ilə əldə edilir". Bəli, mütaliə insanı öz dünyasını tanımasını təmin edir. Mütaliə daxili zənginliyi artırır, mənəvi dünya ilə bir körpü yaradır. İnsanın psixoloji çətinliklərinin yox olmasına kömək edir. Azərbaycanın dahi şəxsiyyətlərindən biri Hüseyn Cavidin "Azər" poemasında verdiyi mesaj buna bariz nümunədir. Azərin psixoloji durumunun aradan qalxması kitabların - mütaliənin səyəsində mümkün olmuşdur. Kitabı oxuduğumuz zaman mütaliənin bizə verdiyi faydalarını daha çox dərk edirik. Ümumiyyətlə, hər hansı oxuduğumuz bir kitabı yenidən vərəqləmək, yenidən oxumaq, sanki keçmiş dostunla yenidən görüşmək, dərdləşməkdir. Eyni zamanda, həmin vaxtdakı psixoloji duruma düşməkdir. Mütaliə etmək-mənəviyyat dünyasının işıqlanmasına, zənginliyinə səbəb olur, ürəyi və ağlı insanlıq sevgisi ilə doldurur.

Müasir dövrdə mütaliə etmək imkanları genişlənir. Texniki avadanlıqların, vasitələrinin artması sürətlənir. Müasir dövrün bu tərəqqisi insanların işinin daha da rahat şəkildə icra etməsini təmin edir. Lakin buna baxmayaraq, bəzən insanların düşüncəsində bu tərəqqinin əslində ənənəvi vərdişlərin bilavasitə itirilməsinə yönəlik təzadlı fikirlər formalaşır. Bəli, texnologiya inkişaf edir. Bu da məlumatların rahat şəkildə əldə edilməsini sürətləndirir. Bir növ operativlik funksiyasını icra edir. Lakin bu demək deyil ki, insanlar bunu ancaq mənfi yöndə icra etsinlər. Tarixə nəzər salsaq, əvvəlki dövrlərdə məlumat almaq çoxmərhələli proses idi. İndiki zamanda bu əlimizin altındadır. Demək ki, daha da informasiyalanmaq, məlumatlanmaq üçün əlimizdə gözəl fürsətlər var. Bundan sui-istifadə etməmək lazımdır. O demək deyil ki, biz əlimizə kitab, qələm götürməyi unutmalıyıq. Hər bir yeniliyin bizə fayda verəcək istiqamətlərini özümüzdə kəşf etməliyik. Texnologiyanın bugünkü nailiyyəti sayəsində pandemiya dövründə distant təhsildən yararlana bilirik. Təhsildən virtual da olsa, şagirdlər, tələbələr faydalana bilir. Onların təhsil almasında yarana biləcək çətinliklər məhz texnologiyanın bugünkü inkişafı sayəsində təmin olunur. Bu yenilik daha çox kitab, qəzet nəşrini çoxaltmaq, cəmiyyətdə yaymaq, insanlarda daha çox kitaba, mütaliəyə marağın artmasını təmin edir. Susuz yaşamaq olmadığı kimi mütaliəsiz də yaşamaq mümkünsüz görünməlidir. Mütaliə insana düzgün təfəkkürün formalaşmasında ən böyük vasitəçidir. Məhz bunun sayəsində biz doğru istiqamətin hansı tərəfdə olduğunu aydınlaşdıra bilirik. Mütaliə bir növ bizə işıq olur, körpü olur. Necə ki 1-ci sinifdə əlimizdən qələm tutub yazı yazmağı öyrədən müəllim kimi.



# Maarifçiliyə innovasiyalı yanaşma

**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyinə**

**Tariyel MƏMMƏDOV,**
*Sənətşünaslıq doktoru, professor, Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının müdiri*

Məlumdur ki, mədəniyyətin səviyyəsi ilə millətin mənəvi ruhunu, onun hazırkı durumunu və gələcək perspektivini təyin etmək mümkündür. Buna görə də zamanın hökmü ilə mənəviyyatın prioritetini dirçəldilməsi geniş, irimiqyaslı mədəni-maarifçilik işi vasitəsilə belə qabarıq və dinamik şəkildə fəallaşmışdır. Mənəvi gözəllik ən ali dəyər və sonsuz qüvvə olaraq, yüksək incəsənətin səsdə, sözdə, rəngdə, mərmərdə... təcəssüm olunmuş bədii obrazları vasitəsilə insanları, cəmiyyəti dəyişmək, yeniləmək qüdrətinə malik olduğunu dəfələrlə təsdiqləmişdir.

Şübhəsiz, maarifçiliyin ən təsirli vasitəsi KİV-lərdir, lakin istərdik ki, kütləvi informasiya vasitələrində musiqi jurnalistikası daha da inkişaf etsin, incəsənətin ən demoktatik janrı olan musiqinin carçılarının sayı çox olsun. Əlbəttə ki, bizi belə bir sual düşündürür: "Ali musiqi təhsili iyerarxiyasında musiqiçilərin həm akademik, həm də pedaqoji tətbiqi yönümlü peşəkar fəaliyyətində maarifçilik təbliği, mədəni-tərbiyəvi, öyrədici - "reklam" istiqamətlərində hansı yeri tutur?".

Bu baxımdan yanaşsaq, qeyd etməliyik ki, musiqi ixtisası üzrə ali məktəblərin məzunları məlumat-maarifçilik, mühazirəçi-natiqlik vərdişlərinə, auditoriyaya fəal təsir metodlarına daha artıq yiyələnməlidirlər, çünki bir ixtisas kimi "musiqi jurnalistliyi" və ya deyək ki, "tətbiqi musiqişünaslıq" sahəsinin Azərbaycanın standart ali musiqi məktəblərində genişləndirilməsinə ehtiyac duyulur və göründüyü kimi, bu istiqamətdə işlər aparılır.

Bu gün KİV-də elektron məlumat daşıyıcıları ilə çalışan musiqi jurnalistlərinə tələbat çox yüksəkdir. Onların peşəkarlığı "istehlak bazarına", cəmiyyətin intellektual ehtiyatlarına cavab verməlidir. Başqa sözlə desək, mütəxəssislər ART-menecer biliklərinə, redaktorluq təcrübəsinə, ssenariçi vərdişlərinə, rejissor və operator işinə, səs və videomontaj təcrübəsinə yiyələnməlidirlər. Bütün bu vərdişlər bədii müəllif ideyalarının müstəqil şəkildə həyata keçirilməsi üçün lazımdır. Real gündəlik təcrübə göstərir ki, KİV-də musiqi incəsənəti sahəsində məlumat-maarifləndirici işini adətən akademik musiqişünas yerinə yetirir. Lakin o, özündə həmçinin, jurnalistlik biliklərini və üsullarını, onun texnikasını və materialı canlı şəkildə işıqlandırmaq qabiliyyətini cəmləşdirməlidir. Eyni zamanda, bu işlə məşğul olan jurnalistlər də musiqi və səs yaradıcılığının xüsusiyyətləri, incəsənətin əlaqəli növləri haqqında məlumatlı olmalıdır.

Burada özfəaliyyət pafosu, bacarıqsızlıq tamamilə yolverilməzdir və ümumbəşəri idealın - musiqi dünyasının gözəlliyinin dərk olunmasına yönəldilmiş maarifçilik dəyərləndirmə fəaliyyəti kimi xeyirxah bir işə müəyyən ziyan vurur.

Bu gün Azərbaycanın akademik musiqisinin xüsusilə peşəkar məlumatlandırıcı-maarifçilik sözünün dəstəyinə ehtiyacı var, belə ki, dinləyici kütləsi və bəzi musiqiçilər arasında çox təhlükəli bölünmə əmələ gəlmişdir. Onların arasında ictimai balansı bərpa etmək KİV-in "əlaqə kanallarının" fəallığının yüksəldilməsi, musiqi-tənqidi jurnalistikanın dirçəldilməsi vasitəsilə mümkündür ki, bunlar Azərbaycanın musiqi incəsənətinin görkəmli xadimləri, musiqi quruculuğunun memarları, dövrün müasir milli musiqi-intonasiya dilinin yaradıcıları - Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli və başqaları tərəfindən məhsuldar şəkildə istifadə olunmuşdur.

Onların "canlı səsləri", məzmunlu fikirləri, tövsiyələri, vətənpərvər inamları emosional dinamik boyalarla rənglənərək, "Azərbaycanın canlı səsləri" saytının səhifələrindən təsirli səslənir *(http://voices.musigi-dunya.az/)*.

Musiqişünasın müasir maarifçilik "sözü" sonsuz imkanlara malikdir. O, həm verbal, həm də audioqrafik çərçivədə tərtib olunaraq teatr, kino, təsviri sənətin təcəssümü ilə bağlı geniş ifadə arsenalını ehtiva edir. Bu səciyyəvi ifadə vasitələri, məsələn, musiqi əsərlərinin fraqmentlərinin səslənməsini əks etdirməklə, eyni zamanda, bunu bədii incəsənətin paralel dünyasından multimediya təbəqələnməsi ilə müşayiət olunur. Axtarışların bu cür rəngarəngliyi insan əllərinin bədii yaradıcılığını sintez edir, orijinal qarşılıqlı əlaqələrin estetik təfsirləri dinləyici-tamaşaçıya musiqişünas sözü vasitəsilə bədii yaradıcılığın hüdudsuz ideyalar aləminə nüfuz etməyə kömək edir.

Lakin musiqi tənqidi və musiqi jurnalistikasını fərqləndirmək lazımdır. Musiqi tənqidi - bu, hər şeydən əvvəl, musiqi incəsənəti sahəsində hadisələrin qiymətləndirilməsi ilə bağlı mühakimələrlə əlaqədardır. Musiqi jurnalistikası - daha geniş anlayışdır, özündə həm bilavasitə musiqi tənqidini, həm də musiqi haqqında maarifçilik, təbliğat, məlumat xarakterli müxtəlif yönümlü, müxtəlif formatlı mətnlərin yazılmasını əhatə edir. Onlar qəzet və jurnal səhifələrində çap olunmuş ənənəvi mülahizələrin səviyyəsinə görə fərqlənir. TV və radionun rolunun fəallaşması ilə musiqi jurnalistikasına radio və televerilişlərin ssenariləri, reklam çarxları, kliplər, həmçinin bizim günlərdə məşhurlaşan internet-nəşrlər və s. daxil olunmuşdur.

Cəmiyyət üçün musiqi-maarifçiliyi işinin zəruriliyini dərk edərək, Ü.Hacıbəyli adına BMA-nın professor-müəllim heyəti artıq iki ildir ki, tədris prosesinə maarifçilik, musiqi-kulturologiyası, tədris-təlim istiqamətlərində mühazirələrin (həm əyani, həm də distant) daxil edilməsi uğrunda fəal iş aparır. Akademik musiqi kafedralarının (Tarix, Nəzəriyyə, Etnomusiqişünaslıq) təcrübəsi İKT texnologiyalarının tətbiqi ilə bərabər, tədrisin əməli formalarını təkmilləşdirməyə imkan verməklə, həmçinin, tələbələrə musiqi fənlərinin akademik blokunun aşıladığı "sözün" incəliklərinə və musiqinin sirlərinə yiyələnməyə yönəldilir. Eyni zamanda, Azərbaycanda ilk musiqişünaslıq jurnalı olan, Bakı Musiqi Akademiyası və Azərbaycan Bəstəkarlar İttifaqının təsisçiliyi ilə nəşr olunan "Musiqi dünyası" *(http://www.musigi-dunya.az/)* jurnalının səhifələri vasitəsilə jurnalist redaktorluq fəaliyyətinin vərdişlərini mənimsəməyə şərait yaradır.

Müasir informasiya-mühazirə sisteminin ən yeni nailiyyətləri, son onilliklərdə rabitə sistemində baş vermiş inqilabi dəyişikliklər multimedianın bir janr kimi əhəmiyyətini göstərir. Kompüter bazasında elektron texnologiyaları musiqi təhsilinə də tətbiq olunmuş, internet-jurnalistikanın tətbiqi musiqişünaslığın imkanlarını genişləndirmişdir. Bu baxımdan BMA-nın müəllimləri mütərəqqi mediatexnologiyaları, rabitə informasiya vasitələrinin kompleks metodunu mənimsəyərək və öz maraq dairəsinə daxil edərək, maarifçiliyin metodologiyasını təkmilləşdirirlər.

Belə ki, ilk dəfə olaraq, BMA-nın saytının səhifələrində *(http://musicacademy.edu.az)* "Mediateka" bölməsində *(www.musicacademy.edu.az/index.php/struktur/mediateka)* ayrıca yaradılmış elektron sənədlər bloku - "Musiqi lektoriyası" təqdim olunur ki, burada BMA-nın müəllimlərinin multimedia formatında mühazirələri yer alır. Mühazirələr həm xarici musiqi mədəniyyətinə - mühazirəçi, professor Ü.İmanova ("Bethoven", "Musiqi romantizmi", "Vyana klassisizmi" və s.), həm Azərbaycanın şifahi ənənəli professional musiqisi muğam dəstgahlarına - professor R.Zöhrabov ("Rast", "Şur", "Segah", "Çahargah" və s.), həm də musiqi klassikasına: "Üzeyir qiraətləri" *(http://lecture.musigi-dunya.az/auditorium.html)* - professor Ü.İmanova, Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" - dosent D.Məmmədova və s. həsr olunmuşdur.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, BMA-nın müəllimləri mühazirə ustalığının multimedia vasitələrini təkcə yuxarıda göstərildiyi kimi ayrı-ayrı mövzu istiqamətlərində tətbiq etmirlər. Həmçinin, tez-tez səs formatında mühazirə materialı didaktik dərs vəsaiti kimi istifadə olunur. Məsələn, professorlar C.Həsənovanın ("Leyli və Məcnun", "Qarabağ muğam məktəbi"), F.Əliyevanın ("Arşın mal alan"), Z.Dadaşzadənin ("Q.Qarayev"), Ş.Mahmudovanın ("Əfrasiyab Bədəlbəyli") və b. mühazirələri böyük maraqla qarşılanır - bununla Ü.Hacıbəyli portalının *(http://uzeyir.musigi-dunya.az/az/fonoteka.html)* səhifələrində daha yaxından tanış olmaq mümkündür.

Qeyd edək ki, bu səviyyədə mühazirələr internet məkanında həm Azərbaycan dilində, həm də rus dilində aparılır ki, bu da onların idrak-maarifçilik səviyyəsini yüksəldərək, internet istifadəçilərin auditoriyasını genişləndirir.

BMA-nın müəllimlərinin musiqişünaslıq fəaliyyətinin universallığı daxili vəhdətə əsaslanır və hər bir istiqamət (elmi, maarifçilik, pedaqoji) müəyyən əlaqə funksiyasını yerinə yetirərək, elmi musiqişünaslığın idrak qnoseoloji təcrübəsini, pedaqogikanın didaktik metodlarını, musiqi tənqidinin aksioloji tələblərini və bədii publisistikanın ritorik üsullarını əks etdirir. Yaradıcılığın bütün növləri o qədər əlaqəlidir ki, bəzən elə gəlir ki, onların sərhədləri şərtidir. Məsələn, Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən BMA-nın müəllimlərinin müəllif kimi iştirakı ilə hazırlanmış Azərbaycan bəstəkarları və musiqişünasları haqqında elmi-publisistik kitabçalar seriyasını *(http://abm.musigi-dunya.az/)* musiqişünaslığın hansı istiqamətinə aid etmək olar.

Bunlarda təqdim olunmuş elmi və maarifçilik musiqişünaslıq fəaliyyətinin metodları, formaları və janrları eyni dərəcədə əhəmiyyətlidir və təbii ki, bir-birini tamamlayır. Aydın görünür ki, musiqişünaslıq yaradıcılığının bütün növləri musiqi maarifçiliyi istiqamətində nəinki musiqinin estetik mənalandırılması baxımından vahid məqsədlə, həmçinin, musiqili-bədii məlumatın ötürülməsində vahid ictimai-təcrübi tələbatla, cəmiyyətin mənəvi kamilləşməsində bədii maarifçilik yaradıcılığının mənimsənilməsi ilə birləşdirilir.

Nizami Gəncəvi - 880

# "Muzeylər və Nizami irsi"

## Virtual beynəlxalq proqrama start verilib



Cari ilin 18-26 may tarixlərini əhatə edən "Məktəblilər üçün muzey həftəsi" layihəsi çərçivəsində "Muzeylər və Nizami irsi" adlı virtual beynəlxalq proqrama start verilib. Proqram Təhsil, Mədəniyyət nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əməkdaşlığı və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə icra edilir.

Beynəlxalq proqramın məqsədi məktəbliləri Nizami irsi ilə tanış etmək, onlarda klassik irsə məhəbbət hissi aşılamaq, həmçinin onların asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.

"Muzeylər və Nizami irsi" adlı virtual beynəlxalq proqramın açılış mərasimində Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə, Mədəniyyət Nazirliyi Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin müdiri Nərgiz Abdullayeva, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Himayəçilər Şurasının sədr müavini Rəfi Qurbanov, Gəncə şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Sevinc Ələkbərova çıxış ediblər.

Mayın 18-də beynəlxalq proqram çərçivəsində Gəncə şəhərində Nizami Gəncəvi adına muzeydən gənc bələdçi Xədicə Qasımova tərəfindən virtual ekskursiya təqdim edilib.

Proqram çərçivəsində mayın 18-dən başlayaraq 26-dək hər gün Mədəniyyət Nazirliyinin tabeliyindəki Gəncə şəhər Nizami Gəncəvi adına muzeyə, Azərbaycan Xalça Muzeyinə, Milli İncəsənət Muzeyinə, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinə, AMEA-nın tabeliyində olan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə, Milli Azərbaycan Tarixi Muzeyinə, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna, xarici ölkələrin muzeylərindən isə ABŞ Konqres kitabxanasına və Moskva Şərq Dövlət Muzeyinə virtual ekskursiyalar təşkil ediləcək.

"Muzey həftəsi" COVID-19 pandemiyası ilə əlaqədar olaraq "Zoom" platforması üzərindən onlayn həyata keçiriləcək.

Layihə çərçivəsində RUGİM-in ən fəal dərnək üzvü olan məktəblilər muzeylərdə Nizami irsinə aid olan eksponatlar haqqında topladıqları məlumatları onlayn bağlantı zamanı virtual ekskursiya kimi nümayiş etdirəcəklər.

Qeyd edək ki, 18 may tarixi dünyanın 150-dən çox ölkəsində Beynəlxalq Muzeylər Günü (International Museum Day) kimi qeyd olunur. Bununla əlaqədar olaraq, 2015-ci ildən başlayaraq Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə təşəbbüsü ilə keçirilən "Məktəblilər üçün muzey həftəsi" layihəsinə start verilib və onun əsasında yeni interaktiv təhsil proqramı yaradılıb. Proqram çərçivəsində hər il mayın 18-dən 26-dək bir həftə ərzində Bakı şəhəri və regionlarda fəaliyyət göstərən muzeyləri əhatə etməklə "Muzey həftəsi" keçirilir. Beş il ərzində maarifləndirici "Muzeylər həftəsi" proqramı çərçivəsində Bakı şəhəri və regionlarda fəaliyyət göstərən muzeylərə 75000-ə yaxın şagirdin ekskursiyası təşkil edilib, onlayn platformada keçirilən proqramı 8000-ə yaxın məktəbli izləyib.

# Dilimizin əzbəri, sözümüzün bəzəyi

*"Hünər ardınca qoş, xalqa xeyir saç,*
*Qapılar bağlama, ər ol, qapı aç"*

- demişdi dahi Azərbayan şairi Nizami Gəncəvi. Üstündən 9 əsr zaman keçməsinə baxmayaraq, bütün dövrlərdə öz hikməti və doğruluq payı ilə aktual olan bu kəlamlar 2021-ci ildə də dilimizin əzbəri, söhbətlərimizin bəzəyidir. Məhz buna görə də bu il dahi şair, mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi münasibətilə Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında sərəncam imzaladı. Uzun illərdir ədəbiyyatşünaslar, filosoflar, tarixçilər, tədqiqatçılar tərəfindən araşdırılmasına, öyrənilməsinə baxmayaraq, öz sirrini, sehrini qoruyub-saxlamağı bacaran Nizami Gəncəvi dünyası bu il daha dərindən tədqiq olunacaq, başqa dillərə tərcümə edilərək bütün dünyaya tanıdılacaq. Artıq üç aydır ki, müxtəlif qurumlar mövcud pandemiya qanunlarına əməl etməklə bu iş üzərində çalışmaqda, fərqli layihələr hazırlamaqdadır.

2021-ci il Azərbaycan xalqı üçün başqa bir mənada da əlamətdar və önəmlidir. Belə ki, 2020-ci ilin sentyabrın 27-də başlanıb 44 gündən sonra böyük qələbəylə nəticələnən II Qarabağ müharibəmizin bəhrələri məhz bu ilə təsadüf edir. Hazırda işğaldan azad olunan torpaqlarda yenidənqurma işləri gedir, xarabazara çevrilən yurdlarımız 30 ildən sonra özünə qayıdır. Qələbə ötən ildə yaşansa da, bir çox insanlarımız məhz bu il öz dədə-baba yurdlarını gedib görə bildilər, illər sonra ilk dəfə o torpaqlara ayaq basdılar. Onlar üçün, elə hamımız üçün bu, sevinc dolu qürurverici və tarixi bir hadisədir.

Qələbə ilindən dərhal sonra "Nizami Gəncəvi İli"nin elan olunması da təsadüfi hadisə deyil. Bütün yaradıcılığı boyunca haqqı, ədaləti, vətənə sevgini təbliğ edən, özü ömrünün axırınacan doğulub boya-başa çatdığı Gəncə şəhərindən bir addım da kənara atmayan şair yurda bağlılığın ən gözəl nümunəsidir.

Şairin doğma torpağı Gəncə də erməni zülmündən əziyyət çəkən şəhərlərimizdən biridir. Mənfur erməni dığasının hər zaman hədəfinə çevrilən Gəncə şəhəri II Qarabağ müharibəsində də ən ağrılı taleni yaşayan bölgələrimizdən oldu. Müharibə meydanında Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən düşmən özünün xislətinə, kökünə yaraşan tərzdə davranmağa davam etdi, hiylə, terrora əl atdı. Azərbaycan Əsgərinə gücü çatmayan düşmən yenə də bacardıqca çox ziyan vermək məqsədilə dinc əhalini hədəf aldı. Müharibə zamanı cəbhədən yüzlərlə kilometr uzaqda yerləşən Gəncə, Bərdə şəhərlərindəki terror aktları, dinc əhalinin hədəf alınaraq bombalanması düşmənin ən iyrənc üzünün daha bir nümayişi idi. Lakin Nizami yurdu Gəncə, şairin "İsgəndərnamə" poemasında xüsusi vəsf olunan Bərdə, digər terrora məruz qalan şəhərlərimiz, onların mərd sakinləri yenə də düşmənə qarşı dimdik dayandılar, ona istədiyini vermədilər. Onlar dahi şairin kəlamına bir daha sadiq qaldılar, ən çətin zamanda belə mərdlik göstərməyə davam etdilər:

*Mərd olmaq gərəkdir həyatda hər an,*
*Mərdliklərlə çatar arzuya insan.*

Ölkəmizdə bütün bu önəmli hadisələr dünya və dövlətimiz üçün qlobal bir hadisənin fonunda baş verdi. Ötən ildən etibarən dünyanı cənginə alan COVID-19 pandemiyası hər kəsin həyatına bu və ya digər şəkildə toxunub. Bir ildən artıq davam edən karantin rejimi insanların ünsiyyətini azaldıb, məktəblərin, müəssisələrin fəaliyyətini məhdudlaşdırıb.

Azərbaycanda da uzun zamandır, məktəblər, təhsil ocaqları onlayn rejimdə fəaliyyət göstərir. Bu karantin tədbirləri canlı ünsiyyəti azaltsa da, ölkə rəhbərliyinin diqqəti və qayğısı sayəsində hər kəs bu durumdan daha az ziyanla çıxmaq üçün çalışır. Xüsusən, təhsil ocaqları onlayn rejimdə belə olsa, dərslərindən qalmır, ölkədə baş verən proseslərə adekvat münasibət göstərirlər. Bunu II Qarabağ müharibəsində də gördük, "Nizami Gəncəvi İli"ndə də. Orta və ali məktəblər onlayn şəkildə, ya da məhdud şəraitdə keçirdiyi tədbirlər, konfranslar, görüşlərlə baş verən hadisələrə münasibətlərini göstərirlər.

*Su kimi aləmə həyat ver, can ver,*
*Hər rəngə uyğunlaş, dərdə dərman ver.*

Bəli, bu gün aləmə həyat, can verən müəllimlərimiz dünyada tüğyan edən yeni növ koronavirus pandemiyasının yaratdığı çətinliklərə sinə gərərək bir daha sübut etdilər ki:

*"Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz".*

Belə ki, hər kəs sağlamlığını qorumaq üçün gözəgörünməz virusla mübarizə apardığı vaxtda Azərbaycan müəllimləri şairin də dediyi kimi, hər rəngə uyğunlaşaraq elmsizlik adlı dərdə dərman oldular. Bütün fədakar müəllimlər öz qüvvələrini səfərbər etdilər. Baxmayaraq, ilk aylar yeni formada tədris biz müəllimlər üçün çətinlik yaratdı, amma Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə reallaşan layihələr, həyata keçirilən tədbirlər üzləşdiyimiz problemlərin tez bir zamanda aradan qaldırılmasına səbəb oldu. "Virtual məktəb" layihəsinin həyata keçirilməsi hər bir müəllim kimi məni də sevindirdi. Çünki tədrisin bu şəkildə əlçatan olması bizi bir ailə kimi yenidən birləşdirdi. Ümid edirik ki, çox tez zamanda koronavirus infeksiyası bütün dünyadan yox olacaq, ölkəmiz və dünyamız normal həyatına qayıdacaq, biz də işğaldan azad olunan torpaqlarımızda həm qələbəmizi, həm də "Nizami Gəncəvi İli"ni rahat, məhdudiyyətsiz şəkildə qeyd edəcəyik. Axı o böyük adam da deyirdi:

*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!*

**Səbinə İMANOVA,**
*Bakı şəhəri Rüstəm Əliyev adına 3 nömrəli tam orta məktəbin Azərbaycan dili-ədəbiyyat müəllimi*

# "Bilik və təcrübəmi Azərbaycan üçün sərf etməyə hazıram"



## Tanıtım

Sadiq İttifaq oğlu Qaçayev 27 dekabr 1988-ci ildə Bakıda anadan olub. 1996-2007-ci illərdə Müşfiqabad qəsəbəsində 274 nömrəli orta məktəbdə təhsil alıb. 2009-2013-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Jurnalistika" ixtisası üzrə bakalavr təhsili alaraq ali məktəbi fərqlənmə diplomu ilə bitirib. Universitet illərində bir sıra layihələrin rəhbəri, fəal iştirakçısı olub. Müxtəlif ölkələrdə Azərbaycanı təmsil edib və mükafatlara layiq görülüb. 2013-2016-cı illərdə özəl sektor və dövlət qurumlarında ictimaiyyətlə əlaqələrin qurulması və idarəetmə sahələrində təcrübə toplayıb. 2016-2019-cu illərdə Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında bağlanmış "Hökumətlərarası Təqaüd Proqramları" çərçivəsində Çin Xalq Respublikasının Hökumət təqaüdü ilə Pekin şəhərində magistr təhsili alıb. 2019-cu ildə Beijing Normal University-nin Sosial İnkişaf və İctimai Siyasət Məktəbindən "Dövlət idarəetməsi" ixtisası üzrə məzun olub. 2020-2021-ci tədris ili üçün elan edilmiş müsahibədə iştirak edib, 2020-2024-cü illərdə Çinin Hökumət təqaüdü ilə Yanşan Universitetinin Humanitar Elmlər və Hüquq Məktəbində (əvvəlki adı ilə Dövlət İdarəetməsi Məktəbi) doktorantura pilləsində "Dövlət idarəetməsi" ixtisası üzrə təhsil almaq hüququ qazanıb.

## *Sadiq Qaçayev:* "Hər bir uğurlu kadr ölkəmizin dayanıqlı inkişafına töhfə verə bilər"

Müasir dövrdə ölkələrin dayanıqlı inkişafında ali təhsilin müstəsna rolu danılmazdır. Sürətli dəyişikliklər dövründə məhz ali təhsil davamlı inkişafın əsas hərəkətverici qüvvəsi hesab olunur. Buna görə də son illərdə dövlət başçısı tərəfindən ölkədə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanması sahəsində mühüm qərarlar qəbul olunub. Ali təhsil sahəsində qəbul olunan mühüm qərarlardan biri dünyanın müxtəlif ölkələri ilə həyata keçirilən Hökumətlərarası Təqaüd Proqramlarını (HTP) göstərmək olar. Son illərdə minlərlə gənc bu proq-



ramlardan istifadə etmək hüququ qazanıb. Təqaüd proqramının imkanlarından yararlanaraq xaricdə təhsil arzularını reallaşdıran, öz uğur hekayəsini yazan gənclərimizdən biri də Sadiq Qacayevdir.

### Uğurlu karyera, təhsil imkanları

*- Siz Hökumətlərarası Təqaüd proqramları çərçivəsində Çində təhsil almısınız. Proqramın təhsilinizdə rolu, əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

- İlk növbədə qeyd edim ki, Hökumətlərarası Təqaüd Proqramları (HTP) Azərbaycan Respublikası vətəndaşlarının bu müqavilələrin imzalandığı müvafiq ölkələrdə, eyni zamanda həmin ölkələrin vətəndaşlarının Azərbaycanda qarşılıqlı olaraq tam təqaüdlə təhsilini əhatə edir. HTP çərçivəsində bu günədək 100-dən çox Azərbaycan vətəndaşı ÇXR-də təhsil alıb və alır. Ümumilikdə isə ÇXR-də 500 nəfərə qədər Azərbaycan vətəndaşı fərqli proqram və təqaüdlər vasitəsilə təhsil alıb və almaqdadır.

Şəxsi təcrübəmə gəlincə, təbii ki, həyatımda çox böyük müsbət dəyişikliklər baş verdi. Çində olarkən, dünyanın bir sıra nüfuzlu universitetlərinin professor və müəllimləri universitetimizin qonağı oldular. Onlardan öyrəndiyim bilik və təcrübə mənə hər şeyə daha fərqli və daha peşəkar mövqedən baxmağa, yanaşmağa imkan yaratdı. Həmin dövrdə yalnız təhsil aldığım universitetdə yox, həm də Çinin dünyada məşhur olan digər universitetlərində - Tsinghua Universiteti, Pekin Universiteti, Pekin Xarici Dillər Universiteti, Cilin Universiteti, Şanxay İqtisadiyyat Universitetində keçirilən yerli və beynəlxalq təcrübə proqramları, seminar, mühazirə və görüşlərdə iştirak etmişəm. Bu məqamlar mənə yeni biliklər verməklə bərabər, həm də dünyaca məşhur professor, elm və iş adamları ilə dost olmaq və əlaqələr qurmaq şansı yaratdı ki, bu da gələcəkdə uğurlu karyera və təhsil imkanlarına açar rolunu oynayır. Magistr təhsilim dövründə universitetimizdə keçirilən beynəlxalq mədəniyyət festivallarında, rəsmi və qeyri-rəsmi görüşlərdə Azərbaycanı layiqincə təmsil etməyə çalışmışam. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çin-Azərbaycan əməkdaşlığının müxtəlif aspektlərini əhatə edən görüşlərdə iştirak və çıxışlar etmişəm. Eyni zamanda, 2019-cu ilin oktyabrında, məzun olduqdan sonra yenidən Çinə gedərək ölkəmizi rəsmi tədbirdə təmsil edərək, dövlət qurumunun əməkdaşı kimi Azərbaycan adına xüsusi təşəkkürnamə əldə etmişəm.

Təbii ki, bütün sadaladıqlarım və daha çox xoş xatirələri və qazandığım uğurları mən Hökumətlərarası Təqaüd Proqramlarının dəstəyi sayəsində əldə etmişəm. HTP-nin rolu mənim həyatımda danılmazdır. Məhz bu səbəbdən yenidən HTP çərçivəsində Çində təhsil almaq, doktorantura pilləsini uğurla başa vurmaq üçün müraciət etdim və uğur qazandım.

### Əcnəbi doktorantlar arasında ilk sırada

*- Hazırda doktorantura təhsili aldığınız universitet və tədqiqat mövzunuz barədə nə deyə bilərsiniz?*

- Dediyim kimi, 2020-2021-ci tədris ili üçün verilmiş elanı gördükdə dərhal müraciət etmək haqqında düşündüm. Dostlarım, valideynlərim ailəli olduğumu mütləq ciddi şəkildə nəzərə almağımı istədilər. Buna baxmayaraq, ailəm və valideynlərim mənim doktorant olmaq kimi böyük bir arzumun olduğunu çox gözəl bilirdilər. Odur ki, hər zaman olduğu kimi, yenə də dəstəklədilər. Lazımi sənədləri toplayaraq müraciət etdim. Nəticələr elan olunarkən uğurlu olduğumu görüb keçirdiyim həmin xoşbəxt hissləri sözlə ifadə etmək tamamilə mümkünsüzdür. Şükürlər olsun ki, çəkdiyim əziyyət itmədi.

Paytaxt Pekinə cəmi 1-2 saatlıq məsafədə, şimalda yerləşən, daha maraqlısı isə Böyük Çin Səddinin dənizlə birləşdiyi məkanın - Çinhuandao şəhərinin Yanşan Universitetindən qəbul aldım. Mövcud pandemiya şəraiti ilə əlaqədar hələ ki Çinə gedə bilməmişik. Ümid edirəm, tezliklə hər şey yaxşı olacaq və biz dərslərimizə onlayn şəkildə yox, birbaşa kampusda davam edəcəyik.

Yanşan Universiteti Çində ən yaxşı "Dövlət İdarəetməsi Məktəbi" - fakültəsi olan universitetlər arasında ilk 10-luqdadır. 37000 tələbəsi və 2800 nəfərə yaxın professor-müəllim heyəti olan universitet tədqiqat yönümlü ali təhsil müəssisəsidir ki, uğurlu məzun olmaq üçün doktorantlara qoyulan tələblər həddindən artıq sərt və bəzən inanılmazdır. Məsələn, mənim tələbəsi olduğum Humanitar Elmlər və Hüquq Məktəbi doktorant namizədlərə dünyaca məşhur və yüksək impakt faktorlu elmi jurnallarda minimum 3 elmi məqalə dərc etmək kimi bir ağır şərt qoyub. Elmi rəhbərimin mənə olan inamı və böyük dəstəyi ilə yuxarıda qeyd etdiyim "qorxunu" dəf edə bilmişəm. Həm də, bu günlərdə 2 təhlil məqaləm çap olunub ki, onlar da elmi məqalə statusunda çap olunmasalar da birbaşa olaraq mənim hazırkı dissertasiya mövzumun tərkib hissəsidir. Çətinliklərə baxmayaraq, ilk akademik ili ən yüksək göstərici - 100-dən 97 bal toplayaraq, 5.0-dən 4.5 ortalama ilə 2020-2021-ci tədris ilində Yanşan Universitetinə qəbul olmuş 20-dən çox əcnəbi doktorant arasında ilk sırada yer almışam. Bununla da Azərbaycanımızı tanıtmaq üçün kiçik də olsa addım atmış oldum.

### "Cəsarətin inanılmazdır"

Tədqiqat mövzuma gəlincə, mənim hazırkı dissertasiya mövzum magistr təhsilim zamanı etdiyim tədqiqatın daha yığcam və spesifik davamıdır. Belə ki, Pekində magistr adını qazanmaq üçün "CNPC (Çin), BP (Böyük Britaniya) və Lukoyl (Rusiya) şirkətlərinin Azərbaycanın neft və qaz sektoruna investisiya strategiyalarının arxasındakı motivlərin geosiyasi və iqtisadi perspektivdən müqayisəli təhlili" kimi ağır bir mövzuda tədqiqat aparmışdım. Hətta həmin dövrdə magistr elmi rəhbərim olan professor Pyer Miyej: "Magistr dərəcəsi üçün bu qədər çətin və geniş mövzu seçməyə ehtiyac yoxdur. Amma cəsarətin inanılmazdır. Əgər uğurlu məzun ola bilsən, etdiyin yaxşı araşdırmanın yox, məhz bu cəsarətinin hesabına məzun olacaqsan" demişdi. Məncə, o, haqlı idi, elə də oldu *(gülür)*.

Hazırda üzərində çalışdığım dissertasiya mövzusu isə belədir: ""Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çinin enerji təhlükəsizliyinin vacibliyi: Çinin Avropanın enerji bazarına çıxmasında Azərbaycanın nəqliyyat dəhlizi kimi rolu". İnşallah uğurla bitirəcəyimə inanıram.

*- Tədqiqatlarınız ölkəmiz üçün nə dərəcədə əhəmiyyətlidir və hansı töhfələr verə bilər?*

- Mənim tədqiqat mövzularım daha çox Çin fokusludur. Xüsusilə indiki dissertasiya mövzum bunu sübut edir. Təbii ki, qazandığım hər bir uğur, təkcə mənim fərdi uğurum yox, həm də Azərbaycan təhsilinin uğurudur. Qazanılan hər bir peşəkar və uğurlu kadr ölkəmizin dayanıqlı inkişafına töhfə verə bilər. Odur ki, mən də uğurlu doktorant olduqdan sonra, qazandığım bilik və təcrübəmi Azərbaycan üçün, onun inkişafı və daha da güclənməsi üçün sərf etməyə hazıram.

### Azərbaycan-Çin əlaqələri haqqında təqdimat

*- Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün oxşar mədəniyyətlərə, etno-kultural dəyərlərə sahib ölkələr kimi Azərbaycan-Çin münasibətlərinə və əlaqələrin perspektiv inkişafına təsiri barədə fikirlərinizi bilmək istərdik.*

- Mayın 14-də universitetimizdə Azərbaycan haqqında geniş təqdimat etdim. Videokonfrans formatında keçirilən təqdimatda Azərbaycan-Çin əlaqələri, mədəniyyətlərimiz arasında fərqli və oxşar cəhətlər, Azərbaycanda Çin dilinin tədrisinin mövcud vəziyyəti haqqında geniş məlumat verdim. Bundan başqa, ölkəmizin beynəlxalq aləmdə artan mövqeyindən, Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrinin regionun inkişafı üçün yaratdığı imkanlardan, ölkəmizin iqtisadi inkişafından, xalqımızın mədəni irsindən, adət-ənənələrimizdən danışdım. Qeyd etdim ki, tarixən şərq ilə qərb arasında Qədim İpək Yolunun üzərində yerləşən Azərbaycan coğrafi mövqeyi və sahib olduğu nəqliyyat-tranzit imkanları ilə Avropa və Çin arasında körpü ola bilər. Bu səbəbdən də Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü ilk gündən dəstəkləyir və ən fəal iştirakçılarından biridir. Aydın məsələdir ki, bu da öz növbəsində xalqlarımız arasında olan qədim dostluq ənənələrinin nümunələrindən biridir. Mövcud və çətin pandemiya şəraitində də, biz bu dostluğun necə möhkəm və sağlam təməl üzərində qurulduğunun birbaşa şahidi olduq. Çin hökuməti Azərbaycana 150 min pulsuz vaksin göndərdi və virusla mübarizədə Azərbaycana dəstəyin davam edəcəyini bildirdi. İnanıram ki, bu dostluq və əməkdaşlıq, xalqlarımız arasında olan qarşılıqlı hörmət və dəstək daimi olacaqdır.

### Təhsil sahəsində əməkdaşlığa təkan

*- Çin - Azərbaycan təhsil əlaqələrinin inkişafında bu layihənin rolu və əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

- Bildiyiniz kimi, Çinin 2013-cü ilin payızında təqdim olunan "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmuş olan ölkələrin 200-ə yaxın ali təhsil müəssisəsi ilə Çindəki həmkarları arasında əməkdaşlıq, tələbə və müəllim mübadilələri, təqaüd proqramları icra edilməkdədir. "Bir kəmər, bir yol" təqaüdü Çin tərəfindən təsis edilib və hər il "Bir kəmər, bir yol" təşəbbüsü ölkələrindən olan 10 min tələbə bu təqaüd vasitəsilə Çinin müxtəlif nüfuzlu ali təhsil müəssisələrində bakalavr, magistr və doktorantura səviyyələrində təhsil alır. 2019-cu ilin rəqəmlərinə baxsaq görərik ki, Çində təhsil alan "Bir kəmər, bir yol" təşəbbüsü ölkələrindən olan tələbələrin sayı əvvəlki illərə nisbətən 12 faiz artaraq təxminən 318 min nəfərə çatıb. Azərbaycandan da bir neçə tələbə əvvəlki illərdə bu təqaüd vasitəsilə Çində təhsil almaq imkanı qazanıb. İnanıram ki, bu rəqəm daha da artacaq. Ümumiyyətlə, "Bir kəmər, bir yol" təşəbbüsünün ölkələrimiz arasında təhsil sahəsində də geniş əməkdaşlığa təkan verəcəyinə əminəm.

### "Bilik və həyat təcrübəsi qazandım"

*- Doktorantura təhsilinizdən gözləntiləriniz barədə nə deyə bilərsiniz?*

- Əvvəlcə onu demək istəyirəm ki, Çin mənim üçün arzuların çin olduğu bir ölkədir. Mən Çində tamamilə fərqli, maraqlı bilik və həyat təcrübəsi qazandım. Bu mənada özümü çox şanslı və uğurlu hesab edirəm. Çində aldığım təhsildən gözləntilərim, təbii ki, böyük və çoxdur. İlk məqsədim və həm də tək istəyim uğurla məzun olmaqdır. Çünki hansı ölkədə olmasından asılı olmayaraq, doktorantura təhsil səviyyəsi həddindən artıq çətin, elə bir o qədər də maraqlı bir dövrdür. Həm də tamamilə fərqli və yeni bir həyat tərzidir. Cəmi 9 aydır doktorantura pilləsində təhsil alsam da, artıq onun əsl həyəcanı və fəlsəfəsini dərk etməyə başlamışam. İnanıram ki, başladığım bu çətin sınağı uğurla başa vurub mənə göstərilən inam və etimadı layiqincə doğruldacağam. Məzun olduqdan sonra həm Azərbaycanda, həm də ölkə xaricində gələcəklə bağlı gözləntilərim var və ümid edirəm hər şey yaxşı olacaq.

Fürsətdən istifadə edib, ölkə xaricində təhsil alan bütün həmvətənlərimizə səbrli və dözümlü olmağı arzu edirəm. Oralara gedib çıxmaq artıq özü böyük bir uğurdur. Uğurlarımız davamlı olsun. Sizə də, hər zaman biz tələbələri dinlədiyiniz və tanıtdığınız üçün çox təşəkkür edirəm. Mənə çox xoş oldu.

**Oruc MUSTAFAYEV**

# Gənclik həvəsli qocaman müəllim

Eyvaz müəllimə görə peşənin, sənətin pisi yoxdur, onu təmsil edənlərin yaxşıları və ya pisləri olur. Pedaqoji sənətdə isə ikincisinə heç yer yoxdur, ya yaxşı müəllim olacaqsan, ya da bu sənətdən uzaqlaşacaqsan. Uşaqlar bütün dövrlərdə cəmiyyətlərin gələcəyi hesab olunub. Cəmiyyət və valideynlər dünyada ən əziz, ən qiymətli varını biz müəllimlərə etibar edir, etibara sədaqət isə hər bir vicdanlı insan şəxsiyyətinin mayakıdır.



Eyvaz müəllimin ən çox bəyəndiyim xüsusiyyətlərindən biri də onun öyrətməli olduğu materialı dəfələrlə saf-çürük edib, mənimsənilməsinin asanlığına tam əmin olduqdan sonra təqdim etməsidir. Onun dərs vəsaitlərində səhifə-səhifə, sətir-sətir altından qırmızı xətt çəkilmiş yerlər görmək olar. Bu, peşakar müəllimə yeri gəldikdə manevr etmək, başa düşülməyən məqamı nişanladığı yerin müqayisəsi ilə bərabər, öz dəst-xətti ilə izah etməsi üçündür. Müəllim eyni bir məsələnin ən azı üç variantda izahına hazır olmalı, qarşısındakı tələbənin ürəyində zərrə qədər şübhə yeri qalmamasına çalışmalıdır. Eyvaz müəllim də tanıdığım belə müəllimlərdəndir.

Eyvaz müəllimi uzun müddətdir ki, tanıyıram. İllər boyunca bir yerdə çalışmışıq. Sima baxımından xeyli dəyişsə də, xarakter, xasiyyətcə əvvəllər necə görmüşəmsə bu gün də elədir. Müəllim haqqında başqaları çox rahatlıqla danışa, söz söyləyə bilər, lakin müəllimin öz həmkarı haqqında fikir söyləməsi o qədər də asan deyil. Hər insan fərqli yarandığı kimi, fəaliyyət göstərdiyi sahədə də fərqlənir başqalarından. Eyvaz müəllimin ən tez təsir bağışlayan cəhəti onun enerjili olması, işini daha şövqlə, həvəslə görməsidir. Diqqətlə müşahidəyə ehtiyac olmadan hər kəs Eyvaz müəllim üçün ikinci dərəcəli bir işin olmadığını müəyyən edə bilər. İşinə çox məsuliyyətlə, həssaslıqla yanaşır, tələbələrindən də yiyələnmək istədikləri ixtisasa qarşı eyni münasibət bəsləmələrini tələb edir.

Mən dəfələrlə təcrübəli müəllimlərin belə bu və ya digər məsələlər barəsində Eyvaz müəllimə müraciət etdiklərinin və onun məsələyə nə qədər səmimiyyətlə yanaşdığının, həmin məsələyə onların özlərinin fəal iştirakı ilə necə aydınlıq gətirdiyinin şahidi olmuşam. Onun özünün də fikir mübadiləsinə ehtiyacı olduğu zaman həmkarları ilə nə qədər alicənab davrandığını da görmüşəm.

Eyvaz müəllim öz həmkarlarına dəyər, qiymət verməkdə çox səxavətlidir, comərddir. O, "düşməninin" də yaxşılığını istəyən, istəməklə kifayətlənməyib ona hər cür yardım göstərməyi bacaran böyük ürək sahibidir. Yaxşı yadımdadır, kənddə bir nəfər kobudcasına onun xətrinə dəyir. Bir müddətdən sonra, gəlməyəcəyini zənn edərək tərəddüd içərisində, onu oğlunun toyuna dəvət edir. Eyvaz müəllim heç nə olmamış kimi, "el şad, mən də şad" deyib, fərəhlə toya gedir. Məclisdə ona söz verilir. Sinədəftər müəllim elə bir çıxış edir ki, toy sahibi özünə yenidən baxmalı olur. Toydan sonra Eyvaz müəllimə yanaşıb dönə-dönə üzr istəyir. Bax, Eyvaz müəllim belə bir ürək sahibidir!

Eyvaz müəllim həm də nümunəvi ailə başçısıdır. Hər iki övladına dərs demişəm. Həm oğlu, həm də qızının gözəl ailəsi var və bu gözəlliyin nəsillər boyunca davam edəcəyinə əminəm, çünki bu şəcərənin kökü gözəlliyə dayanır.

Eyvaz müəllim əsl müəllimdir, öyrədəndir. O, həm də pedaqoji xəzinədir. Onu öyrənməyə dəyər. Sabahın müəllimləri ondan tədris etdiyi fənlə yanaşı, əsl müəllimliyin sirlərini də öyrənməlidirlər ki, gələcəkdə uğur qazansınlar.

İlk baxışda soyuqqanlı görünən Eyvaz müəllimin nə qədər mehriban, ailə, qohum-qardaş, övlad, nəvə, dostcanlı olduğunu onu tanıyanların hamısı bilir.

Bu gün də gənclik həvəsi ilə çalışan qabaqcıl təhsil işçisi, dəfələrlə ilin müəllimi olmuş, çoxsaylı mükafatlar sahibi, ADPU-nun Quba filialının baş müəllimi Eyvaz Şeydayev, həmkarlarının, universitet rəhbərliyinin və tələbə kollektivinin rəğbət və hörmətini qazanmış pedaqoqlarımızdandır.

Həmkarımız, dostumuz, istedadlı pedaqoq, gözəl insan, nümunəvi şəxsiyyət olan Eyvaz müəllimi altmış beş yaşı münasibəti ilə təbrik edir, ona cansağlığı, uzun, sağlam və xeyirli ömür arzu edirik!

**Rahib SƏDULLAYEV,**
*ADPU-nun Quba filialının ədəbiyyat və dillər kafedrasının baş müəllimi, Qabaqcıl təhsil işçisi*

# "Rəssamlıq sənətinin məşhur simalarından olacağam"

*Ülvi Əsədli:*

"Rəsmlərimdə erməni faşistlərinə nifrət hissimi daha qabarıq təsvir edirəm"

**Qısa təqdimat**

13 yaşım var. 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Buta dizayn" studiyasının üzvüyəm. Rəsm muəllimim Könül Orucovadır. Kiçik yaşlarımdan şəkil çəkməyə həvəsim var. Artıq 6 ildir ki, bu dərnəkdə məşğul oluram. Yaşıdlarımdan istedadımla seçildiyim kimi təhsildə də sinif yoldaşlarımdan geri qalmıram.



Əsədli Ülvi qeyri-adi istedad sahibidir. Həmsöhbətim sevə-sevə məşğul olduğu rəsm dərnəyinin fəaliyyəti ilə bağlı həyəcansız danışa bilmirdi. Hiss olunurdu ki, ötən bu illər ərzində Ülvi dərnəyə sadəcə vaxtını boş keçirməmək naminə getməyib. Qeyri-ixtiyari olaraq mən yeniyetmə olsa da artıq bu sahədə kifayət qədər təcrübəsi olan bir rəssamla qarşı-qarşıya söhbət etdiyimin fərqində oldum. Müxtəlif mövzulu və məzmunlu rəsm əsərlərini, qrafik üsulda fırçaya aldığı yaradıcılıq nümunələrini mənə göstərdikcə hiss edirdim ki, baxışlarımdan və üzümün mimikasından yaradıcılıq potensialına dəyər verdiyimi, hər bir sənət əsərini ürəkdən bəyəndiyimi duyurdu. Bu, onu daha da ruhlandırır, daha da ürəkli edir, çəkdiyi rəngarəng rəsmlərin fövqündə hansı hissləri yaşadığını çəkinmədən etiraf edirdi. Ülvi danışdıqca, onun yaradıcılığına olan vurğunluğum daha da artırdı. O, ən maraqlı bir həmsöhbət idi. Özünü olduqca sərbəst aparır, fikirlərini səlis ifadə edirdi. Bu, məni də bir jurnalist olaraq çox sevindirirdi.

## Üç il ardıcıl olaraq müsabiqə qalibi oldum

Təhsil və Fövqəladə Hallar nazirlikləri tərəfindən 2017, 2018 və 2019-cu illərdə "Fövqəladə hallar uşaqların gözü ilə" Respublika uşaq yaradıcılıq müsabiqəsində əl işi nominasiyası üzrə 3 il ardıcıl olaraq I yerlərə layiq görülmüşəm. Sonra Mərkəzin təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri İmaməddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Nəqşi cahan" naxış festivalında fəal iştirakıma görə diplomla mükafatlandırıldım. Daha sonra isə Mərkəzimizin təşkil etdiyi "PAZL ART" adlı sərgidə rəsmlərim yüksək qiymətləndirildi və sertifikat əldə etdim. 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "My National customs and Traditions" Respublika sərgisində də sertifikat qazandım.

## İlk qələbəmin sevinci

Yeri gəlmişkən, qeyd edim ki, dərnək dostlarım kimi mənim də rəsmə marağımı ilk hiss edən valideynlərim olub və 2-ci sinifdə oxuyarkən sənədlərimi bu Mərkəzə təqdim ediblər. Sınaq yoxlamalardan uğurla çıxdığıma görə dərhal məni rəsm dərnəyinə üzv yazdılar. Ötən bu 6 ildə iştirak etdiyim sərgi, festival və müsabiqələrin sayı-hesabı yoxdur və demək olar ki, bütün yaradıcılıq yarışmalarında qaliblər cərgəsində olmuşam. İlk uğurum 2017-ci ildə keçirilən "Fövqəladə hallar uşaqların gözü ilə" sərgisi oldu və bu, məni çox həvəsləndirdi. İlk qələbənin sevinci məni daha gözəl və məzmunlu rəsmlər çəkməyə ruhlandırdı.

## Uğurlarıma görə müəllimlərimə borcluyam

Müəllimim Könül Orucovanın vaxtaşırı verdiyi öyüd-nəsihətlər rəsmlərimdə mövcud olan qüsurları aradan qaldırmaq üçün mənə dəstək olurdu. Təcrübəli müəllimimin verdiyi düzgün istiqamət yavaş-yavaş bu sahəyə marağımı və daha yaxşı rəsmlər çəkməyə həvəsimi artırırdı. Buna görə də indi bütün məsuliyyətimlə söyləyirəm ki, yaxşı müəllimin pis şagirdi olmur, müəllim şagirdi düzgün istiqamətləndirəndə zəhməti hədər getmir və yetirməsi ümidlərini doğruldur. Bütün yaradıcılıq sahələrində olduğu kimi, rəssamlıqda da uğurların mənbəyi, özəyi əməkdir, bir də bu sahəyə hədsiz həvəsin, bağlılığın, məhəbbətin. Bu üç amil vəhdətdə olanda istedad sahibini yaradıcılıq potensialını inkişaf etdirməyə həvəsləndirir.

## Foto müsabiqəsində də birinci

2020-ci ildə Təhsil Nazirliyi və 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birlikdə təşkil etdiyi "Pəncərəmdən açılan mənzərə" onlayn beynəlxalq uşaq foto- müsabiqənin "Adidə qeyri-adilik" nominasiyası üzrə I yeri tutdum. Bu fotomüsabiqə mənim yaradıcılıq hesabatlarım arasında ən çox yaddaqalan oldu. Təbii olaraq buna qədər bir çox rəsm sərgilərində artıq birinciliklər qazanmışdım. Amma bu, axı, foto müsabiqəsi idi və mən ilk dəfə olaraq bu sahədə də öz bacarığımı ortaya qoymalı idim. Etiraf edim ki, özümə güvənirdim, bilirdim ki, özünəgüvənclik olmasa, mən qalib gələ bilməyəcəyəm. İncəsənətin bu növünə də yaranan marağım foto çəkilişinə həvəsimi birə-beş artırdı və nəticədə müsabiqəyə təqdim etdiyim "Ümid işığı" adlı şəklim I yerə layiq görüldü.

## Biz birlikdə güclüyük

1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Biz bilikdə güclüyük" onlayn rəsm müsabiqəsində yaşıdlarımı, bütövlükdə xalqımızı narahat edən pandemiyaya qarşı birgə mübarizəyə səsləyən qeyri-adi bir rəsm nümunəsi ortaya qoydum. Biz doğrudan da bu gözəgörünməz bəlaya qarşı birlikdə və inadla mübarizə aparmalıyıq ki, virusun qarşısında aciz qalmayaq. "Ən yaxşı qrafik rəsmə görə" fəxri fərmana layiq görülən bu qrafik rəsmim həm də yaşıdlarıma bir çağırış idi.

## Qürur hissi keçirirəm

Son zamanlar kağız üzərində canlandırdığım rəsmləri tam mənada qəhrəmanlıq salnamələri adlandırmaq olar. Çünki bu rəsmlərin demək olar ki, hamısı igid oğullarımızın Qarabağ savaşında çaldığı tarixi qələbənin müxtəlif çalarlarını əks etdirir. Haldan-hala düşürəm bu mövzunun içində yaşayan zaman. Gah kövrəlirəm, gah qürur hissi keçirirəm, gah da qeyzə gəlirəm, sanki barıt qoxulu səngərdə hayqıraraq erməniləri lənətləyirəm. Rəsmlərimdə azğın erməni faşistlərinə nifrət hissimi daha qabarıq təsvir edirəm. Bu mövzuya həsr olunan bütün rəsmlərim sərgilərdə və müsabiqələrdə qaliblər sırasında sərgilənir.

## Çox çalışacağam

...Rəssamlıq sənətinin sirlərinə dərindən yiyələnəcəyimə, bu ülvi peşənin məşhur simalarından olacağıma özümə söz vermişəm. Bunun üçünsə bilirəm ki, öz üzərimdə çox çalışmalı olacağam, lap çox. İnadkarlıq nümayiş etdirəcəyəm, gecəmi gündüzümə qatıb bu arzumu gerçəkləşdirəcəyəm.

**Sifai SƏFƏROVA**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

aşağıdakı dekan və kafedra
müdiri vəzifələrini tutmaq üçün müsabiqə

**ELAN EDİR**

**Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün**

1. *Fizika-riyaziyyat*

**Kafedra üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. *Kimya*
2. *Ümumi riyaziyyat*
3. *İnformatika*
4. *Təməl tibb fənləri*
5. *İngilis dili və metodika*
6. *Nəqliyyat mühəndisliyi və texniki fənlər*
7. *Elektronika və informasiya texnologiyaları*
8. *Rus və şərq dilləri*
9. *Fəlsəfə və sosial iş*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətinədək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

**Ünvan:** Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Naxçıvan Dövlət Universiteti

**Telefon:** (036)545-23-66

**REKTORLUQ**



## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti,
529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4176 **Sifariş** 911

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əbilova Günay Əlimərdan qızına verilmiş B-621328 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 4 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdulova Günay Abdulla qızına verilmiş A-621716 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1989-cu ildə Babayeva Elza Ağaqulu qızına verilmiş PB-044986 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Hərbi-Dənizçilik Məktəbi** tərəfindən 1997-ci ildə Cabbarov Nəriman Rəşid oğluna verilmiş MN-0001008 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Səfikürd kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Allahverdiyeva Nənəxanım Rasim qızına verilmiş A-480727 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** M.Ə.Sabir adına 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Mustafayev Emil Mehman oğluna verilmiş A-375247 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi** tərəfindən 2001-ci ildə verilmiş Mustafayeva Yuliya Həbib qızına verilmiş AB-II-053987 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya İnstitutu** tərəfindən 1984-cü ildə Məmmədov Rəhman Yusif oğluna verilmiş ЦВ-024348 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1984-cü ildə Məlikov Nadir Bayram oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Qasımova Şahanə Şahin qızına verilmiş A-187363 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Səmidxan kənd tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Nağıyev Ülvi Nahid oğluna verilmiş A-683599 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Qarasaqqal kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Dadaşova (Hüseynova) Rəfiqə Əlisa qızına verilmiş 039127 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qaracallı kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Kərimov Aqil Xasməmməd oğluna verilmiş 111466 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** 1 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Xanaliyeva Ləman Firdovsi qızına verilmiş E-332799 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Məzrəli kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Ağayev Rəvan Asif oğluna verilmiş A-291422 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 203 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Kərimli Nurlan Mahmud oğluna verilmiş A-306733 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Seyidqışlaq kənd əsas məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Məmmədov Şirvan İlqar oğluna verilmiş B-582962 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəmir Yolları Biləcəri** stansiyası 2 nömrəli orta məktəbi (indiki 297 nömrəli tam orta məktəb) 2001-ci ildə bitirmiş Çıraqlı (Çıraqov) İsa Qəhrəman oğluna verilmiş A-396782 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəmir Yolları Biləcəri** stansiyası 2 nömrəli orta məktəbi (indiki 297 nömrəli tam orta məktəb) 2001-ci ildə bitirmiş Çıraqov Sənan Qəhrəman oğluna verilmiş A-396783 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 38 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Həsənov Azər Xudaşükür oğluna verilmiş 126 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 278 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədov Rüstəm Seyran oğluna verilmiş B-000077 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2019-cu ildə Mikayılova Aytac Elçin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Babazadə Səlbi Yaqub qızına verilmiş BN-413237 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Babazadə Əli Yaqub oğluna verilmiş BN-413258 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) 1987-ci ildə Əhmədova (Xəlilova) Rəhilə Sədi qızına verilmiş PB-016836 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1992-ci ildə Quliyeva Şərqiyyə Balabək qızına verilmiş УВ-I-114307 nömrəli diplom və 1993-cü ildə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1989-cu ildə Əliyeva Bəsti Hadı qızına verilmiş PB-031061 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Turizm Kolleci** tərəfindən 2015-ci ildə Ağamirzəyeva Nübar Akif qızına verilmiş AA-066644 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Ş.Nuriyev adına Zeyvə kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Əliyeva Elnarə Əhəd qızına verilmiş A-016544 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft-Energetika Kolleci** tərəfindən 1999-cu ildə Teymurov Mahmud Məmmədcamal oğluna verilmiş AB-II-046854 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Xocastə Elmar Siyavuş oğluna verilmiş A-219822 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Polubəyli kənd ümumi orta məktəbi 2010-cu ildə bitirmiş Ələkbərova Salehə Yaşar qızına verilmiş A-993507 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ağayeva (Vahidova) Aygün Arif qızına verilmiş 519701 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xoreoqrafiya Məktəbinin** IX sinfini 1993-cü ildə bitirmiş Pedayi Pərviz Cavanşir oğluna verilmiş A-104768 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2000-ci ildə Pedayi Pərviz Cavanşir oğluna verilmiş A-063602 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Ruslan Qalib oğluna verilmiş A-653383 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Qasımova Aygün Tağı qızına verilmiş A-148169 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəmir Yolu Liseyi** tərəfindən 2018-ci ildə Abdurahmanov Vüqar İlqar oğluna verilmiş AA-107895 nömrəli diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2015-ci ildə Abdurahmanov Vüqar İlqar oğluna verilmiş A-059719 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** tərəfindən 1983-cü ildə Abdullayev Ayaz Oqtay oğluna verilmiş ЖТ-014566 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Göyəçöl kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Muxtarova Mahizər Sarbala qızına verilmiş B-458491 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qarasuçu kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Nəsirovİslam Mustafa oğluna verilmiş B-197529 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Nərimankənd kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Muradov Tərlan Abbas oğluna verilmiş A-647786 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Bala Kolatan kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Zinyət Şakir qızına verilmiş A-743934 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İsmayılov Ülfət Şəmsəddin oğluna verilmiş A-126244 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1997-ci ildə Əmircanova Təranə Əmircan qızına verilmiş AB-I-061696 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbin nəzdində qiyabi qrupun XII sinfini 2015-ci ildə bitirmiş Əliquliyeva Türkan Ədalət qızına verilmiş 403301 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Ağayeva Aygün Faiq qızına verilmiş A-403758 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 6 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qoçəliyeva Tünzalə Bəybala qızına verilmiş B-073726 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Şirinov Mübariz Vaqif oğluna verilmiş 044681 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş İbrahimova Məlahət Ramiz qızına verilmiş 711261 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Çanaqçı kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Mustafalı Maşallah Kamran oğluna verilmiş B-711300 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Muğan kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Ağayeva Səbunə Asif qızına verilmiş 246790 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Abyasova Elnarə Ravilyevnaya verilmiş A-027025 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəniz Yolları Məktəbi** tərəfindən 1998-ci ildə Əzimov Nemət Əliş oğluna verilmiş AB-II-031271 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Kooperativ Texnikumu** tərəfindən 1999-cu ildə Qədirova Sevinc Möhsün qızına verilmiş AB-II-030766 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Yuxarı Nüvədi kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Hüseynov Zəki Əhməd oğluna verilmiş 918589 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gərmətük qəsəbə tam orta məktəbi 2013-cü ildə bitirmiş Bağırova (Aslanlı) Arzu Atakişi qızına verilmiş A-282894 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** İkran qəsəbə tam orta məktəbi 2002-ci ildə bitirmiş Rzayeva (Abbasova) Zabitə Sərdar qızına verilmiş A-594401 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2019-cu ildə Osmanova Nərmin Asim qızına verilmiş AT-005839 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Mahmudov Şəmsəddin Habil oğluna verilmiş EN-081299 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** internat tipli gimnaziyanı 2019-cu ildə bitirmiş Abdullayeva Aysun Əflatun qızına verilmiş C-332901 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dövlət Dəmir Yolu Liseyini** 2019-cu ildə bitirmiş Abasov Asiman Oktay oğluna verilmiş A-123438 nömrəli diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 14 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Yusifov Elməddin Həbib oğluna verilmiş 489414 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Qocalı Qoşqar Zindafur oğluna verilmiş A-227142 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2019-cu ildə Qasımova Tamara Aydın qızına verilmiş C-047822 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** Futbol təmayüllü internat tipli gimnaziyanı 2014-cü ildə bitirmiş Əhmədov Altun Altay oğluna verilmiş A-437107 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollektivi Maliyyə şöbəsinin əməkdaşı Akif Hacıyevə qardaşı

**LƏTİF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil Nazirliyi Həmkarlar İttifaqı Komitəsinin üzvləri iş yoldaşları Akif Hacıyevə qardaşı

**LƏTİF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Təhsilin iqtisadiyyatı sektorunun aparıcı məsləhətçisi Hökümə İbrahimovaya atası

**KAMRAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinn rektoru professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti universitetin Əsaslı kitabxanasının kitabxanaçısı Xalidə Mikayılovaya anası

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan müəllimi" qəzetinin kollektivi iş yoldaşları Sifai Səfərovaya bacısı

**HUMAY SƏFƏROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Sinqapur startapları niyə uğurludur?



## Təhsil bu sahənin inkişafına böyük töhfələr verir

Cənub-Şərqi Asiyada startap sahəsi öz miqyasına görə hələ də Avropa və Amerikadan uzaqdır, lakin son bir neçə ildə mütləq yüksəliş dövrü yaşayır. "Collective Campus"-un məlumatına görə, 2017-ci ildə region ölkələri startap layihələri üzrə 500-dən çox müqavilə bağlayıblar. Bu, əvvəlki illə müqayisədə (150 sövdələşmə) çoxdur. Texnologiya şirkətləri eyni dövrdə startap layihələrinə təxminən 7 milyard dollar cəlb edib - bu, beş il əvvəl açıqlanan 281 dollar məbləğindən çox - çox uzaq bir rəqəmdir.

Lakin bölgəni təşkil edən 11 ölkə arasında Sinqapur "Bloomberg" şirkətinin 2020-ci il üçün tərtib etdiyi "İnnovasiya indeksi"nə əsasən ən sürətli inkişaf edən startap sənayesi ilə siyahıya rəhbərlik edir. Sinqapur bu sahədə o qədər uğurlu olub ki, hətta dünyada üçüncü yeri tutub.

"EDB Singapore" nəşri xəbər verir ki, artıq şəhər-dövlətdə (Sinqapuru belə də adlandırırlar) 50.000-dən çox belə startap fəaliyyət göstərir ki, onlardan biri də "Grab"dır.

Bir çoxları Sinqapur startaplarının uğurlarını onun çiçəklənən maliyyə və işgüzar sektoru ilə əlaqələndirirlər. Ancaq təhsil də bu sahənin inkişafına böyük töhfələr verir.

### Sinqapur riyaziyyat və təbiət elmləri üzrə çox uğurludur

Beş milyondan çox insanın yaşadığı bu ölkə-şəhər riyaziyyat və təbiət elmləri kimi əsas fənlər üzrə, demək olar ki, bütün qlobal qiymətləndirmə testlərində daim yüksək yerlər tutur. Bunlara "Riyaziyyat və təbiət elmləri üzrə beynəlxalq tədqiqatlarda tendensiyalar" (TIMMS) aiddir və burada ölkəni təxminən 6000 şagird təmsil edir.

Nəticələrə görə, ali riyaziyyat üzrə qlobal orta göstərici cəmi 7 faiz təşkil edib. Buna baxmayaraq, sinqapurlu ibtidai sinif şagirdlərinin yarıdan çoxu bu mövzunun etalonuna uyğun idi. Orta məktəb şagirdlərinin təxminən eyni faizi riyaziyyatı yüksək səviyyədə yaxşı bilir.

Riyaziyyat və təbiət elmləri sahəsində mükəmməl biliklər elm, texnologiya, mühəndisliyin və riyaziyyatın (STEM) əsaslarından biridir. Lakin konsepsiyalara sahib olmaq tənliklərin yalnız yarısıdır.

Təbiət elmləri və riyaziyyatın öyrənilməsi şagirdlərin gələcəkdə startapların qurucusu olacaqları zaman yararlı olacaq yumşaq bacarıqların da əhatə edir. Bunlara analitik səriştə və problemləri həll etmək bacarığı, inkişafa, dayanıqlığa, kreativliyə və innovativliyə yanaşma daxildir. Onlar uşaqlara əyani vəsait və blok sxemlərlə mürəkkəb fikirləri başa düşülənlərə çevirməyi öyrədir.

### Sinqapurlu tələbələrin çoxu xaricdə oxuyur

Credit Suisse-nin 2017-ci il üzrə dünya rifahı haqqında hesabatına əsasən Sinqapurda 150.000-dən çox milyonçu və ya əhalinin 2,5 faizi var. Bununla yanaşı, fövqəladə zəngin olanların sayı 0.5 faiz təşkil edir.

Sinqapurluların əksəriyyəti orta aylıq 9.500 ABŞ dolları gəlir əldə edirlər. Amma burada yaşayış şərtləri də yüksəkdir. Məsələn, daşınmaz əmlak alışı artıq mövcud gəliri 3000 dollara endirə bilər. Yenə də bir çox valideynlər övladlarını xaricdəki kolleclərə və universitetlərə göndərməyə çalışırlar. YUNESKO-nun məlumatına görə, hazırda 24.000 sinqapurlu tələbə dünya üzrə kurslarda oxuyur. Onlardan 2500-dən çoxu Böyük Britaniyadadır.

Bu, necə mümkündür? Birincisi, burada bir çox ibtidai və orta məktəblər öz şagirdlərini xarici universitetlərə qəbul olmaq üçün hazırlayırlar. Sinqapurdakı IB-nin oxşar proqramları, American Education Reaches Out (AERO) Standards və İGCSE universitetdən əvvəlki səviyyəni davam etdirmək istəyən uşaqlar üçün müxtəlif variantlar təklif edir.

Bu proqramlar onların ixtisasını artırır, tələbələrə müəyyən sahələrdə ixtisaslaşmağa kömək edir, hansı ki, onların seçimlərinə və ya maraqlarına uyğun gəlir və yaxın gələcəkdə daha çox beynəlxalq universitet təhsilinə asan çıxışı təmin edir.

Bununla yanaşı, xaricdə aldıqları təhsil onlara uğurlu startap qurmağa kömək edə biləcək bir çox bacarıq və yenilikçi ideyaları öyrədir. Bu, müxtəliflik, əməkdaşlıq və dünyaya lazım olanları daha yaxşı başa düşməkdir.

### Uşaqlar bizneslə məşğula erkən yaşlardan başlayır

Sinqapur müasir ola bilər, lakin onun bir çox müəssisələri ənənəvi olaraq qalır, yəni, ailə yönümlüdür. Müəssisənin idarəçiliyi nəsildən-nəslə ötürülür və ağsaqqallar öz uşaqlarına müxtəlif rollar təklif etməklə erkən yaşlardan müəssisəyə rəhbərlik etməyi öyrədirlər. Gözlənilir ki, heç də bütün gənc sinqapurlular ailə biznesində qalmağa qərar verməyəcəklər. Faktiki olaraq, ailə müəssisələrinin yalnız 12 faizi üçüncü nəslə qədər yaşayır.

Bununla belə, bizneslə erkən tanışlıq təkcə problemləri həll və təhlil etmək üçün mükəmməl deyil, həm də lider ola bilən uşaqların karyera inkişafına kömək edə bilər. Onlar, ehtimal ki, bazarları və marka yaratmaq yollarını daha yaxşı başa düşəcəklər.

Bu insanlar gələcəkdə yalnız baha başa gələcək uğursuzluqlara səbəb ola biləcək aqressiv böyüməni deyil, səbir, inadkar əməyi və sabit mənfəəti qiymətləndirirlər. Bundan əlavə, bu uşaqlar iqtisadi dəyişikliklərə uyğun dəyişən və adaptasiya oluna bilən uşaqlardır, çünki biznesdə iştirak onlara davamlılığı öyrədib.

Startapların işləməsi və müvəffəqiyyətli olması üçün kifayət qədər kapital, parlaq fikir və yaxşı bir marka tələb olunur. O, həmçinin artım qəbulu kimi bir çox yumşaq bacarıqlar, əsas mövzular üzrə qlobal təlim və daha dərin biliklər tələb edir ki, sinqapurlu şagirdlər bunları öyrənmə prosesində əldə edirlər.

*https://www.studentassembly.org/why-are-singapore-startups-successful/*

**Oruc MUSTAFAYEV**



